## PREZİDENT İLHAM ƏLİYEV BEYNƏLXALQ PARALİMPİYA KOMİTƏSİNİN PREZİDENTİNİ QƏBUL EDİB

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 15-də Beynəlxalq Paralimpiya Komitəsinin prezidenti Endrü Parsonsu qəbul edib. AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısı Beynəlxalq Paralimpiya Komitəsinin prezidenti Endrü Parsonsun Azərbaycana səfərinin onun təmsil etdiyi qurumla ölkəmiz arasında əməkdaşlığın perspektivlərini...



Bax səh. 2

## MİLLİ MƏCLİSDƏ 2019-CU İLİN BÜDCƏ ZƏRFİNƏ DAXİL OLAN MƏSƏLƏLƏRİN MÜZAKİRƏSİ BAŞA ÇATIB

Milli Məclisin dünən keçirilən iclasında 2019-cu il üçün büdcə zərfinə daxil olan sənədlərin müzakirəsi davam etdirilib. Milli Məclisin sədri Oqtay Əsədov iclası açaraq müzakirə olunacaq məsələlərlə bağlı məlumat verib. Əvvəlcə Milli Məclisin işlər idarəsinin müdiri Firudin Hacıyev parlamentin gələnilki xərclər smetası barədə məlumatı diqqətə çatdırıb...



Bax səh. 3



Yeni Azərbaycan Partiyası Azərbaycanı müstəqillik yolunda inkişaf etdirməyə qadir bir partiyadır


# YENİ AZƏRBAYCAN

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur. 16 noyabr 2018-ci il, cümə / № 217 (5344). Yeni Azərbaycan Partiyasının orqanı. Qiymətı 40 qəpik


# Prezident İlham Əliyev Təzəpir məscidinin ətrafında görülən abadlıq-quruculuq işlərinin icra vəziyyəti ilə tanış olub





## Prezidentin iş günü

Prezident İlham Əliyev Eldar Əziz oğlu Əzizovun Bakı Şəhər İcra Hakimiyyətinin başçısı təyin edilməsi haqqında Sərəncam imzalayıb.

❖ ❖ ❖

Prezident İlham Əliyev Abel Məmmədəli oğlu Məhərrəmovun Bakı Dövlət Universitetinin rektoru vəzifəsindən azad edilməsi haqqında Sərəncam imzalayıb.

❖ ❖ ❖

Prezident İlham Əliyev Narkotiklərlə Mübarizə üzrə 36-cı Beynəlxalq Konfransın 2019-cu ildə Bakı şəhərində keçirilməsi ilə əlaqədar Təşkilat Komitəsinin yaradılması haqqında Sərəncam imzalayıb.

❖ ❖ ❖

Prezident İlham Əliyev Qusar rayonunun Qusar-Əniq-Laza avtomobil yolunun tikintisi ilə bağlı tədbirlər haqqında Sərəncam imzalayıb.

❖ ❖ ❖

Prezident İlham Əliyev Azərbaycan Respublikasında avtomobil yollarının tikintisi və istismarı sahəsində fərqlənən bir qrup şəxsin təltif edilməsi haqqında Sərəncam imzalayıb.

❖ ❖ ❖

Prezident İlham Əliyev Şükür İsmayıl oğlu Astanova Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdünün verilməsi haqqında Sərəncam imzalayıb.

❖ ❖ ❖

Prezident İlham Əliyev Əvəz İlyas oğlu Qocayevə "Əməkdar mühəndis" fəxri adı verilməsi haqqında Sərəncam imzalayıb.

❖ ❖ ❖

Prezident İlham Əliyev böyük Azərbaycan şairi İmadəddin Nəsiminin 650 illik yubileyinin qeyd edilməsi haqqında Sərəncam imzalayıb.

❖ ❖ ❖

Prezident İlham Əliyev "Azərbaycan Respublikasında peyk vasitəsilə Yerin məsafədən müşahidəsi xidmətlərinin inkişafına dair 2019-2022-ci illər üçün Dövlət Proqramı"nın təsdiq edilməsi haqqında Sərəncam imzalayıb.




## BAKIDA "ÜFÜQDƏ YENİ FÜRSƏTLƏR: QADIN SAHİBKARLAR ÜÇÜN YAŞIL İŞIQ" MÖVZUSUNDA KONFRANS KEÇİRİLİB

Noyabrın 15-də Azərbaycanda Qadın Sahibkarlığının İnkişafı Assosiasiyasının təşkilatçılığı ilə "Üfüqdə yeni fürsətlər: qadın sahibkarlar üçün yaşıl işıq" mövzusunda konfrans keçirilib...

Bax səh. 3

## AZƏRBAYCAN PROKURORLUĞUNUN NÜMAYƏNDƏ HEYƏTİ ANTİKORRUPSİYA STRATEGİYALARINA DAİR BEYNƏLXALQ KONFRANSDA İŞTİRAK EDİB

Noyabrın 12-13-də Romada Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatının (ATƏT), İtaliyanın Xarici İşlər Nazirliyinin, Beynəlxalq Əlaqələr İnstitutunun və nüfuzlu LUISS Quido Karli Universitetinin birgə təşkil etdiyi "ATƏT bölgəsində rəqəmsal dövr üçün antikorrupsiya strategiyalarının hazırlanması üzrə ən yeni tendensiyalar və ən yaxşı təcrübələr" mövzusunda konfrans keçirilib. Baş Prokurorluğun mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, tədbirdə ölkəmizi Azərbaycan Respublikası baş prokurorunun müavini, Baş Prokuror yanında Korrupsiyaya Qarşı Mübarizə Baş İdarəsinin rəisi Kamran Əliyevin rəhbərliyi ilə nümayəndə heyəti təmsil edib. Nümayəndə heyətinə Baş Prokuror yanında Korrupsiyaya Qarşı Mübarizə Baş İdarəsinin rəis müavini Əli Nağıyev...

Bax səh. 6



## MÜASİR İNCƏSƏNƏT MUZEYİNİN ƏSASLI TƏMİRDƏN SONRA AÇILIŞI OLUB

Noyabrın 15-də Müasir İncəsənət Muzeyinin əsaslı təmirdən sonra açılışı olub. Bu münasibətlə Xalq rəssamı Səttar Bəhlulzadənin əsərlərindən ibarət "Cizgi təranəsi" adlı sərgi açılıb. AZƏRTAC xəbər verir ki, tədbirdə dövlət və hökumət üzvləri, tanınmış elm...

Bax səh. 2

## Dağlıq Qarabağ bölgəsinin azərbaycanlı icması Bako Saakyanın Fransaya qanunsuz səfərini pisləyir

"Azərbaycan Respublikası Dağlıq Qarabağ Bölgəsinin Azərbaycanlı İcması" İctimai Birliyi Ermənistan silahlı qüvvələri tərəfindən Azərbaycanın işğal edilmiş ərazilərində yaradılmış qondarma rejimin "rəhbəri" Bako Saakyanın Fransaya qanunsuz səfəri ilə bağlı bəyanat yayıb. İctimai Birlikdən AZƏRTAC-a daxil olan bəyanatın mətnində deyilir: - Azərbaycan Respublikası Dağlıq Qarabağ bölgəsinin azərbaycanlı icması olaraq, Ermənistan silahlı qüvvələri tərəfindən Azərbaycanın işğal edilmiş ərazilərində yaradılmış qanunsuz rejimin təmsilçisi kimi özünü təqdim edən Bako Saakyanın Fransaya səfərini kəskin şəkildə pisləyir və...

Bax səh. 3

### Bakıda Ümumdünya Antidopinq Agentliyinin Təsisçilər Şurasının və İcraiyyə Komitəsinin iclasları keçirilib

Bakıda Ümumdünya Antidopinq Agentliyinin (WADA) Təsisçilər Şurasının və İcraiyyə Komitəsinin iclasları keçirilib...



Bax səh. 5

### Ədalət mühakiməsinin aparılması prosesinin rəqəmsallaşması dövrün tələbidir

Ölkəmizdə dövlət xidmətlərinin həyata keçirilməsində informasiya-kommunikasiya texnologiyalarından istifadə olunması, innovativ həllərin...



Bax səh. 4

### Bakıda "Kulturoloji paradiqmalar və yeniləşən Azərbaycan" mövzusunda beynəlxalq konfrans keçirilir

Dünən Bakı Slavyan Universitetində (BSU) "Kulturoloji paradiqmalar və yeniləşən Azərbaycan" mövzusunda...



Bax səh. 5

### UNEC-də Türkiyə universitetləri ilə əməkdaşlığa həsr olunan beynəlxalq konfrans keçirilib

UNEC-də "UNEC və Türkiyə universitetlərinin əməkdaşlıq istiqamətləri: mövcud vəziyyət və perspektivlər" mövzusunda beynəlxalq konfrans keçirilib...



Bax səh. 5

# Prezident İlham Əliyev Təzəpir məscidinin ətrafında görülən abadlıq-quruculuq işlərinin icra vəziyyəti ilə tanış olub



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 15-də Bakının Yasamal rayonu ərazisində yerləşən Təzəpir məscidinin ətrafındakı ərazidə yol-nəqliyyat infrastrukturunun yaxşılaşdırılması və abadlıq-quruculuq işləri çərçivəsində həyata keçirilən tədbirlərin icra vəziyyəti ilə tanış olub.

AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısına görülən işlər barədə məlumat verilib.



Prezident İlham Əliyevin 2016-cı ilin avqustunda imzaladığı müvafiq sərəncamlarla ayrılmış vəsaitlər hesabına Bakı şəhərinin Yasamal rayonunda yerləşən Füzuli meydanı ətrafındakı ərazidə yeni yolların çəkilməsi, yaşıllaşdırma və abadlıq işlərinin görülməsi, habelə Təzəpir məscidinin ətrafındakı ərazinin abadlaşdırılması, buranın yol-nəqliyyat infrastrukturunun təkmilləşdirilməsi və ziyarətə gələnlərə avtomobillərini saxlamaları üçün imkan yaratmaq məqsədilə Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyi və Yasamal Rayon İcra Hakimiyyəti tərəfindən həmin ərazidə irihəcmli layihələrin icrasına başlanılıb.



İlkin mərhələdə Statistika dairəsi-Nərimanov heykəli-Füzuli meydanını əhatə edən 26 hektar ərazidə tıxacların aradan qaldırılması və yol-nəqliyyat infrastrukturunun təkmilləşdirilməsi istiqamətində mühüm işlər görülüb. O cümlədən Füzuli meydanını Nərimanov prospekti ilə birləşdirən yeni prospekt salınıb, yeni yol qovşaqları tikilib və mövcud küçələr genişləndirilib.



Növbəti mərhələdə isə Təzəpir məscidinin qarşısında xüsusi bağın salınması, Füzuli küçəsi boyunca Mərkəzi Parkın Nəriman Nərimanov prospektinədək davam etdirilməsi, əhali üçün istirahət-əyləncə guşələrinin yaradılması nəzərdə tutulur. Bununla da Bakı şəhərində yaşıllıq zonalarının artırılması və şəhərin ekoloji vəziyyətinin daha da yaxşılaşdırılması istiqamətində növbəti mühüm addım atılmış olacaq.



Son illərdə Prezident İlham Əliyevin rəhbərliyi ilə paytaxtımızda həyata keçirilən abadlıq-quruculuq işləri, şəhər sakinlərinin və ölkəmizə gələn turistlərin istirahəti üçün ən müasir parkların və yeni-yeni yaşıllıq sahələrinin salınması, paytaxtın qədim tarixi memarlıq nümunələrinin bərpası və yeni, müasir binaların tikilib istifadəyə verilməsi nəticəsində Bakı dünyanın ən gözəl şəhərlərindən birinə çevrilib. Bu istiqamətdə aparılan işlərin miqyası getdikcə daha da genişlənir. Paytaxtımızda yeni çoxmərtəbəli müasir binaların və digər sosial obyektlərin inşası ilə yanaşı, şəhərin inkişaf tempinə uyğun gəlməyən, paytaxtımızın müasirlik ansamblını pozan tikililərin sökülməsi ilə bağlı da mühüm layihələr icra edilib. Həyata keçirilən bu cür layihələr arasında keçmişdə "Sovetski" adlanan məhəllənin sökülməsi böyük əhəmiyyəti ilə seçilir. Bu məhəllənin sökülməsi Bakının daha da müasirləşdirilməsi istiqamətində görülən işlərin davamı olmaqla, şəhərin Baş Planının icrasının təmin olunmasına, habelə paytaxtda yol-nəqliyyat infrastrukturunun yaxşılaşdırılmasına da böyük töhfə verdi. Bu ərazidə salınan yeni yollar Bakıda nəqliyyatın rahat və təhlükəsiz hərəkətinin təmin edilməsində, şəhərdə tıxacların azaldılmasında mühüm rol oynadı. Bu layihənin icrası həm də paytaxt sakinlərinin və Bakıya gələn çoxsaylı turistlərin mədəni istirahəti üçün müvafiq şəraitin yaradılması və şəhərin ekoloji durumunun yaxşılaşdırılması istiqamətində həyata keçirilən tədbirlərin də davamlı olduğunu bir daha nümayiş etdirir.



Aparılan işlərin gedişi ilə tanış olan dövlətimizin başçısı müvafiq tapşırıq və tövsiyələrini verib.

# Prezident İlham Əliyev Beynəlxalq Paralimpiya Komitəsinin prezidentini qəbul edib



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 15-də Beynəlxalq Paralimpiya Komitəsinin prezidenti Endrü Parsonsu qəbul edib.

AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısı Beynəlxalq Paralimpiya Komitəsinin prezidenti Endrü Parsonsun Azərbaycana səfərinin onun təmsil etdiyi qurumla ölkəmiz arasında əməkdaşlığın perspektivlərini müzakirə etmək üçün yaxşı imkan yaratdığını deyib. Prezident İlham Əliyev Azərbaycanda idmana, o cümlədən paralimpiyaya yüksək dövlət qayğısı göstərildiyini qeyd edərək bildirib ki, ölkəmizdə aparılan idman siyasəti Azərbaycanın ictimai həyatında böyük rol oynayır. Azərbaycanda paralimpiyaçılara göstərilən xüsusi diqqət və qayğıdan danışan dövlətimizin başçısı bildirib ki, paralimpiyaçılarımız Yay Paralimpiya və eləcə də Avropa Oyunlarında yaxşı nəticələr göstərmişlər.

Prezident İlham Əliyev Endrü Parsonsun Ümumdünya Antidopinq Agentliyinin Təsisçilər Şurasının Bakıda keçirilən iclasında iştirakının önəmini qeyd edib və ölkəmizin bu təşkilatla da yaxşı əməkdaşlıq həyata keçirdiyini deyib.

Beynəlxalq Paralimpiya Komitəsinin prezidenti Endrü Parsons Azərbaycana üçüncü dəfə səfər etdiyini, ötən dövr ərzində ölkəmizdə böyük inkişaf proseslərinin getdiyinin şahidi olduğunu vurğulayıb. O, Prezident İlham Əliyevin idmana, o cümlədən paralimpiyaçılara böyük diqqət və qayğı göstərdiyini qeyd edib və bu münasibətlə beynəlxalq paralimpiya hərəkatı adından dövlətimizin başçısına minnətdarlığını bildirib. Endrü Parsons Azərbaycanda paralimpiyanın inkişafının bir nümunə olduğunu vurğulayıb.

# Müasir İncəsənət Muzeyinin əsaslı təmirdən sonra açılışı olub

*Muzeydə Xalq rəssamı Səttar Bəhlulzadənin əsərlərindən ibarət "Cizgi təranəsi" adlı sərgi açılıb*



Noyabrın 15-də Müasir İncəsənət Muzeyinin əsaslı təmirdən sonra açılışı olub. Bu münasibətlə Xalq rəssamı Səttar Bəhlulzadənin əsərlərindən ibarət "Cizgi təranəsi" adlı sərgi açılıb.

AZƏRTAC xəbər verir ki, tədbirdə dövlət və hökumət üzvləri, tanınmış elm, mədəniyyət və incəsənət xadimləri iştirak ediblər.

Müasir İncəsənət Muzeyinin müdiri Xəyyam Abdinov əsaslı təmir olunan muzeydə görülmüş işlərlə bağlı məlumat verib.

**"Müasir İncəsənət Muzeyi bir müddət idi ki, əsaslı təmirə bağlanmışdı. Təmir zamanı müasir avadanlıqdan və geniş spektrli, böyük təcrübəyə malik olan "Novalyuks" şirkətinin işıqlandırma sistemindən istifadə edilib. Bu şirkət işıqlandırma avadanlığı üzrə dünya liderləri sırasında yer tutmağa iddialıdır. Muzeyin yeniləşmiş texniki bazası daha keyfiyyətli fəaliyyət göstərməyə imkan yaradır. Belə böyük dəstəyə və qayğıya görə Heydər Əliyev Fondunun rəhbərliyinə minnətdarlığımızı bildirir, incəsənətsevərlər adından təşəkkür edirik",** - deyə muzeyin rəhbəri vurğulayıb.



Muzeydə Azərbaycanın və dünya rəssamlarının nadir əsərlərinin təqdim edildiyini söyləyən Xəyyam Abdinov deyib: **"Bu gün Müasir İncəsənət Muzeyində əsaslı təmirdən sonra Xalq rəssamı Səttar Bəhlulzadənin 110 illik yubileyi ərəfəsində "Cizgi təranəsi" adlı sərgi açılır. O, müasir Azərbaycan mənzərə rəngkarlığının, eləcə də Azərbaycan impressionizminin yaradıcılarından sayılır. Məhz buna görə də onu Azərbaycanın Van Qoqu adlandırırlar. Sərgidə rəssamın heç vaxt nümayiş etdirilməmiş, şəxsi kolleksiyasından olan qrafik əsərləri yer alır".**



Sonra tədbir iştirakçıları sərgi ilə tanış olublar.

Sərgidə Səttar Bəhlulzadənin 130-dan çox nadir əsərindən ibarət ekspozisiya təqdim olunur.

Rəssam rəngkarlıq nümunələri ilə bərabər, qrafik əsərlər də yaradıb. Onun əsərləri beynəlxalq sərgilərdə nümayiş olunur. 2009-cu ildə Heydər Əliyev Fondu tərəfindən Səttar Bəhlulzadənin 100 illik yubileyi UNESCO-da qeyd edilib.

Sərgi iştirakçılar tərəfindən maraqla qarşılanıb.

# İtaliyanın "Radio Atene" kanalında Azərbaycandakı multikulturalizm ənənələrindən danışılıb

İtaliyanın "Radio Atene" kanalının beynəlxalq siyasət və iqtisadi forum rubrikasında bu ölkənin Beynəlxalq İqtisadi və Siyasi Araşdırmalar İnstitutunun (IREPI) rəhbəri Domeniko Letizia canlı yayımda "Azərbaycanda multikulturalizmin kəşfi" mövzusunda danışıb.

AZƏRTAC xəbər verir ki, ölkəmizdəki dinlərarası dialoq və multikulturalizm ənənələrindən söhbət açan D.Letizia Azərbaycanın bu gün belə mövzuları müzakirə etmək üçün Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu kimi beynəlxalq formatlar vasitəsilə təqdim etdiyi dünyəvilik və dini dözümlülük modelinin xüsusilə əhəmiyyətli olduğunu vurğulayıb. **"Azərbaycan əhalisinin mütləq əksəriyyətinin müsəlman olması ilə yanaşı, bütün etnik və dini azlıqların hüquqları dövlət tərəfindən bərabər qaydada müdafiə olunur və ölkədə sülh şəraitində birgəyaşayış mühiti mövcuddur. Bu hüquqi model digər ölkələrə və problemli bölgələrə tətbiq olunması üçün xüsusi araşdırma mövzusu olmalıdır",** - deyə italyan ekspert bildirib.

Tədqiqatçı, həmçinin ölkəmizdə çoxsaylı sinaqoqların və yəhudi məktəblərinin mövcud olduğunu qeyd edib, bu xüsusda Quba rayonundakı dağ yəhudilərinin həyatı, eləcə də Azərbaycanla İsrail arasında mövcud əməkdaşlıq haqqında məlumat verib.

Azərbaycanın Ermənistan istisna olmaqla qonşuları ilə yaxın əlaqələrə malik olduğunu bildirən D.Letizia Dağlıq Qarabağ bölgəsi və ətraf 7 rayon daxil olmaqla ölkənin beynəlxalq səviyyədə tanınmış torpaqlarının 20 faizinin Ermənistan tərəfindən işğal olunduğunu diqqətə çatdırıb. Qeyd edib ki, bu münaqişənin heç bir dini əsası yoxdur və Ermənistanın Azərbaycana qarşı ərazi iddialarından irəli gələn bir münaqişədir. Bu xüsusda, nümunə kimi D.Letizia paytaxt Bakının mərkəzində Azərbaycan hökuməti tərəfindən yenidənqurma işləri aparılmış və 5 minə yaxın erməni kitabının saxlanıldığı erməni kilsəsindən söz açıb. O, Azərbaycanın xristian dünyası ilə də münasibətlərindən, 2016-cı ildə Roma Papası Fransiskin ölkəmizə səfərinin əhəmiyyətindən danışıb.

# Milli Məclisdə 2019-cu ilin büdcə zərfinə daxil olan məsələlərin müzakirəsi başa çatıb

*Parlamentdə müzakirələr zamanı qaldırılmış məsələlərə münasibət bildirilməsi üçün hökumətə noyabrın 23-dək vaxt verilib*



Milli Məclisin dünən keçirilən iclasında 2019-cu il üçün büdcə zərfinə daxil olan sənədlərin müzakirəsi davam etdirilib. Milli Məclisin sədri Oqtay Əsədov iclası açaraq müzakirə olunacaq məsələlərlə bağlı məlumat verib.

Əvvəlcə Milli Məclisin işlər idarəsinin müdiri Firudin Hacıyev parlamentin gələnilki xərclər smetası barədə məlumatı diqqətə çatdırıb. Bildirilib ki, Milli Məclisin və onun Aparatının 2019-cu il üçün xərclər smetasının layihəsi mövcud qanunvericilikdə nəzərdə tutulmuş qaydalara uyğun olaraq ştat cədvəllərinə, inzibati binalarında, mühəndis qurğularına xidmət göstərən təşkilatlarla bağlanmış müqavilələrə və proqnozlara əsasən tərtib edilib.

Qeyd olunub ki, Azərbaycan Respublikasının 2019-cu il dövlət büdcəsində Milli Məclisin və onun Aparatının saxlanması üçün 27 milyon 69 min 600 manat vəsait nəzərdə tutulub. Xərclər smetasının ümumi dəyərinin 68,5 faizini əməkhaqqı fondu və əməkhaqqı ilə əlaqədar ayırmalar təşkil edir.

Deputatlar məsələ ilə bağlı fikir və təkliflərini səsləndiriblər. Çıxış edən Yeni Azərbaycan Partiyası (YAP) İcra katibinin müavini, Milli Məclisin İctimai birliklər və dini qurumlar komitəsinin sədri Siyavuş Novruzov deyib ki, müəyyən məsələlərlə bağlı dövlət büdcəsindən Milli Məclisə ayrılan vəsait artırılmalıdır. S.Novruzov bildirib ki, parlamentdə dil məsələsi ilə bağlı şöbə yaradılmalıdır. Onun sözlərinə görə, bu şöbə parlamentə xarici dillərdə daxil olmuş sənədlərin, eləcə də Milli Məclis adından göndərilən rəsmi məktubların, sənədlərin tərcüməsi ilə məşğul olmalıdır: **“Həmin sənədlərin tərcüməsi üçün rusdilli, ingilisdilli mütəxəssislər cəlb olunmalıdır”.**

Milli Məclisdə sosioloji sorğu mərkəzinin yaradılmasını təklif edən S.Novruzov əvvəllər belə bir şöbənin fəaliyyət göstərdiyini xatırladıb: **“Prezident İlham Əliyev Milli Məclisin fəaliyyətini yüksək qiymətləndirir. Biz fəaliyyətimizlə bağlı ictimaiyyətin münasibətini də bilməliyik. Heç olmasa ayda 1 dəfə mərkəz tərəfindən sorğu keçirilməli, mütəxəssislər tərəfindən sorğular vasitəsilə ictimaiyyətin fikri öyrənilməlidir. Dünya təcrübəsində bu praktika mövcuddur”.**

Komitə sədri çıxışı zamanı Milli Məclisə xarici ezamiyyələrlə bağlı ayrılan vəsaitin artırılmasını da təklif edib: **“Bundan əlavə, Milli Məclisin əməkdaşlarının da əmək haqları artırılmalıdır. Çünki onlar gecə-gündüz işləyir, gündəlik gələn qonaqların, ayrı-ayrı parlament üzvlərinin sənədləri, yerləşdirilməsi məsələsi ilə məşğul olurlar. Bu baxımdan bu sahəyə ayrılan vəsait artırılmalıdır”.**

Müzakirələr zamanı millət vəkilləri Aytən Mustafazadə, Zahid Oruc, Qənirə Paşayeva və digərləri çıxış edərək təkliflərini veriblər.

Sonra Hesablama Palatasının sədri Vüqar Gülməmmədov Palatanın 2019-cu il üçün xərclər smetası barədə məlumat verib. Bildirib ki, 2019-cu ildə Azərbaycan Respublikası Hesablama Palatasının saxlanılması üçün 4 milyon 368 min 941 manat vəsait proqnozlaşdırılır. Bu vəsait 2018-ci ilin proqnoz göstəricisindən təqribən 6,5 faiz çoxdur. Artım əsasən bəzi yardımçı dövlət qulluqçularının inzibati təsnifat üzrə yerdəyişməsindən irəli gəlir və yanacağın qiyməti ilə bağlıdır. Palata üzrə xərclər smetasının ümumi məbləğinin 84,3 faizi əməyin ödənilməsini təşkil edir.

Parlamentdə müzakirələr zamanı qaldırılmış məsələlərə münasibət bildirilməsi üçün hökumətə noyabrın 23-dək vaxt verilib.

Daha sonra gündəlikdəki digər məsələlər müzakirə edilib.

“Azərbaycan Respublikası Milli Məclisinin Daxili Nizamnaməsi”ndə, “Azərbaycan Respublikası Milli Məclisi deputatının statusu haqqında” və “Azərbaycan Respublikası Milli Məclisi deputatının etik davranış qaydaları haqqında” qanunlarda dəyişikliklər edilməsinə dair layihələri təqdim edən parlamentin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynli hər üç məsələni ətraflı şərh edib.

Daha sonra millət vəkilləri məsələləri müzakirə ediblər. **“Milli Məclisin etik davranışları ilə bağlı qanun layihəsinin müzakirəsi zamanı ən çox irad tutulan məsələ deputatların plenar iclaslar zamanı günün ikinci yarısında iştirak etməməsi ilə bağlıdır. Məgər günün ikinci hissəsində qəbul olunan qanunlar eyni çəkiyə malik deyil? Əgər hansısa deputatın tədbiri və ya iştirak etməmək üçün səbəbi varsa, bu barədə məlumat verməlidir”.** Bu fikirləri YAP İcra katibinin müavini, Milli Məclisin İctimai birliklər və dini qurumlar komitəsinin sədri Siyavuş Novruzov çıxış edərkən deyib.

Deputatların hədiyyə almaq məsələsinə gəlincə, millət vəkili söyləyib ki, bu təcrübə ABŞ-da və digər ölkələrdə də movcuddur.

Millət vəkili Əflatun Amaşov da çıxışında “Deputatların etik davranış qaydaları haqqında” qanuna edilən dəyişikliklərdən danışaraq bu praktikanın dünyada mövcud olduğunu bildirib. Onun sözlərinə görə, heç bir deputat səlahiyyətlərinin icrası çərçivəsində statusundan öz maraqları üçün istifadə etməməlidir.

Qeyd edək ki, müzakirələrdən sonra qanun layihələri ayrı-ayrılıqda səsə qoyularaq ikinci oxunuşda qəbul edilib.

Daha sonra komitə sədri Əli Hüseynli “Notariat haqqında” qanunda dəyişiklik edilməsi haqqında qanun layihəsi barədə də məlumat verib. Bildirilib ki, dəyişikliklər notariat hərəkətlərinin aparılması ilə bağlı milli və beynəlxalq təcrübə nəzərə alınmaqla qanunvericiliyin təkmilləşdirilməsi məqsədilə təklif edilir.

Qanun layihəsində notarius vəzifəsi tələblərinə hüquqşünas ixtisası üzrə 3 ildən az olmayaraq iş stajının olması əlavə olunur. Bundan başqa, xüsusi notariusun köməkçisinin təyin olunması və onun fəaliyyəti ilə bağlı yeni normalar təklif edilir.

Layihədə notariusun şəhadətnaməsinin məhkəmə və ya müvafiq icra hakimiyyəti orqanı (Ədliyyə Nazirliyi) tərəfindən deyil, yalnız Ədliyyə Nazirliyi tərəfindən ləğv edilməsi təklif edilir. Bu da məhkəmə prosesinin uzun zaman ala biləcəyini nəzərdə tutaraq, ləğv etməyə əsas olan halların vaxtında və operativ araşdırılaraq qərar verilməsi məqsədi güdür. Bu zaman maraqlı şəxslərin inzibati aktdan mövcud qanunvericiliyə əsasən şikayət vermək hüququ saxlanılır.

Xüsusi notariusun vəzifədən kənarlaşdırılması ilə bağlı yeni maddə təklif olunur. Layihədə öz əksini tapmış vəzifədən kənarlaşdırılması üçün mövcud olan əsaslar aradan qalxdıqda xüsusi notarius vəzifələrinin icrasına buraxılır. Layihəyə əsasən notariuslar “Elektron notariat” informasiya sistemindən istifadə edirlər, hər bir notariusun elektron imzası olmalıdır. Bundan başqa, xüsusi notariusun müraciət edən şəxslər tərəfindən əvvəlcədən verilmiş bildiriş üzrə notariat ofisindən kənarda, habelə iş vaxtından sonra, istirahət və ya bayram günlərində də notariat hərəkətləri apara bilməsi layihədə öz əksini tapıb.

Layihədə qanuna xüsusi notariusun intizam məsuliyyətinə cəlb edilməsi qaydası və tətbiq edilən intizam tənbehlərini tənzimləyən yeni normanın əlavə edilməsi təklif olunur. Notariat xidmətinin inkişafı və təkmilləşdirilməsi məqsədilə, notariusların məcburi üzvlüyünə əsaslanan, fəaliyyətini özünüidarəetmə prinsipi üzrə həyata keçirən və qeyri-kommersiya hüquqi şəxs olan Notariat Palatasının yaradılması təklif olunur.

Qanunun mövcud redaksiyada öz əksini tapan daşınmaz əmlakın özgəninkiləşdirilməsi və ya girov qoyulması haqqında əqdlərin həmin əmlakın olduğu yer üzrə təsdiq olunması ilə bağlı tələbinin ləğv olunması təklif edilir.

Qanun layihəsi səsə qoyularaq təsdiq edilib.

**Nardar BAYRAMLI**

# Bakıda “Üfüqdə yeni fürsətlər: qadın sahibkarlar üçün yaşıl işıq” mövzusunda konfrans keçirilib




Noyabrın 15-də Azərbaycanda Qadın Sahibkarlığının İnkişafı Assosiasiyasının təşkilatçılığı ilə “Üfüqdə yeni fürsətlər: qadın sahibkarlar üçün yaşıl işıq” mövzusunda konfrans keçirilib.

AZƏRTAC xəbər verir ki, tədbiri açan Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Hicran Hüseynova bildirib ki, konfransın təşkilində əsas məqsəd qadın sahibkarlığının inkişafına dəstək olmaq, onlar üçün yeni imkanlar yaratmaqdan ibarətdir.

Bildirilib ki, noyabrın 12-18-də dünyada sahibkarlığın inkişafı həftəsi qeyd olunur. Konfrans həm də bu təşəbbüsə dəstək vermək məqsədi daşıyır.

Məlumat verilib ki, Azərbaycanda Qadın Sahibkarlığının İnkişafı Assosiasiyası İqtisadiyyat Nazirliyi, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi, Azərbaycan Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyasının dəstəyi, ölkədə fəaliyyət göstərən qadın sahibkarların təşəbbüsü ilə təsis olunub. Assosiasiyanın əsas məqsədi kiçik və orta sahibkarlıqla məşğul olan sahibkar qadınları bir araya gətirmək, onların inkişafına, yerli və dünya arenasına çıxmalarına dəstək verməkdir. Eləcə də məqsəd assosiasiyanın təşəbbüsü ilə yerli və beynəlxalq tədbirlərdə, forumlarda, konfranslarda, təlimlərdə sahibkar qadınların iştirakını təşkil etməkdir. Qısa müddət ərzində assosiasiya böyük nailiyyətlər əldə edib, daxili və xarici əlaqələrini genişləndirib və hazırda sahibkar qadınlarla birgə ölkəmizi beynəlxalq arenada layiqincə təmsil edir.



Hicran Hüseynova vurğulayıb ki, bu gün Azərbaycanda sahibkarlığa çox böyük dəstək var. Ölkəmiz bu sahədə bir çox beynəlxalq konvensiyaya qoşulub. Bu konvensiyalarda ölkəmiz üçün vacib məsələlər, xüsusilə gender problemi də yer alır. Əvvəllər Azərbaycanda qadın sahibkarlar 4 faiz təşkil edirdisə, indi bu rəqəm 30 faizə çatıb. Son 15 ildə Azərbaycanda 4060-dan çox qadın sahibkara 72,5 milyon manat kredit verilib. Bu, o deməkdir ki, Azərbaycanda bu istiqamətdə böyük dəyişikliklər gedir.

Tədbirdə çıxış edən Baş nazirin müavini Əli Əhmədov qeyd edib ki, hökumətin diqqət mərkəzində saxladığı məsələlərdən biri də ailə sferasında qadın əməyinin əhəmiyyətli dərəcədə yüngülləşdirilməsi, onların kiçik və orta sahibkarlığa cəlb edilməsidir. Bu, hökumətin müəyyən etdiyi siyasətin tərkib hissəsidir. Azərbaycan hökuməti qadınların kiçik və orta sahibkarlıqla məşğulolma səviyyəsini artırmaq üçün proqramlar həyata keçirir. **“Biz qadınların kiçik və orta sahibkarlıqla məşğul olmasını stimullaşdırmaq üçün tədbirlər həyata keçiririk. Qadınlarımız ailə həyatının qayğısının böyük hissəsini öz üzərlərinə götürdüklərindən onların kiçik və orta sahibkarlıqla məşğul olması imkanları bir-birini tamamlamır”,** - deyə o əlavə edib.

Baş nazirin müavini qeyd edib ki, Azərbaycanda kiçik sahibkarlığın formalarından biri kimi özünüməşğulluq forması tətbiq olunur. Bu da qadınların əmək fəaliyyətinin artırılması üçün əlavə imkan yaradır. Azərbaycan hökuməti Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi vasitəsilə özünüməşğulluq üçün əhəmiyyətli stimullaşdırıcı tədbirlər həyata keçirməyi, o cümlədən maliyyə vəsaiti ayırmağı nəzərdə tutub. Özünüməşğulluğun inkişaf etdirilməsində hökumətin müəyyənləşdirdiyi proqramlarda iştirak etməklə qadınlarımız kiçik istehsal və xidmət üçün müəyyən vərdiş və biliklər əldə edəcəklər. Azərbaycan qadınlarının məşğulluq səviyyəsi bir sıra sahələrdə, xüsusilə də təhsil və səhiyyə sahəsində yüksəkdir. Hətta iki sahədə qadınlar iştirakçılıq səviyyəsinə görə kişilərdən üstündürlər. Bütün sahələrdə qadın və kişilərin bərabər təmsil olunmaları vacib amildir. Biz bunu da təşviq edirik. Bu mənada, qadınların sahibkarlıq sahəsində iştirakçılığının artması önəmli vəzifələrdən biridir. Qadın fəallığı ictimai tərəqqinin ən vacib göstəricilərindəndir. Harada qadın fəallığı varsa, orada ictimai tərəqqi var. Azərbaycan qadını bütün sahələrdə ictimai fəallığını nümayiş etdirir, ictimai rəydə iştirak edir.

Diqqətə çatdırılıb ki, azad bazar iqtisadiyyatının tələblərinə uyğun olaraq, sahibkarlığın, xüsusilə kiçik və orta sahibkarlığın inkişafına qayğı göstərilməsi Azərbaycan dövlətinin diqqət yetirdiyi məsələlərdən biridir. Bu işdə Azərbaycan Qadın Sahibkarlığı Assosiasiyası müəyyən nailiyyətlər əldə edə bilib. Hədəfimiz ondan ibarətdir ki, qadınlarımız kiçik və orta sahibkarlıqla daha cəsarətlə, daha qətiyyətlə məşğul olsunlar, daha çox sayda qadın sahibkarlıq sferasına cəlb olunsun.

Sonra çıxış edən BMT-nin Azərbaycandakı rezident əlaqələndiricisi Qulam İshaqzai konfransın əhəmiyyətindən danışıb. Bildirib ki, belə tədbirlərin keçirilməsi qadınların sahibkarlıq fəaliyyətinin artırılmasında, onların hüquqlarının qorunması və layiqli əməyin təmin olunmasında, həmçinin perspektivlərin müəyyən edilməsində mühüm rol oynayır. Qadınlar arasında sahibkarlığı gücləndirmək üçün aidiyyəti dövlət qurumları, vətəndaş cəmiyyəti, media və mütəxəssis icması da daxil olmaqla bütün iştirakçıların davamlı dəstəyinə ehtiyac var.

Azərbaycan Qadın Sahibkarlığının İnkişafı Assosiasiyasının İdarə Heyətinin sədri Səkinə Babayeva vurğulayıb ki, Prezident İlham Əliyevin həyata keçirdiyi uğurlu sosial-iqtisadi siyasət respublikamızın dinamik inkişafına şərait yaradıb. Son 15 ildə makroiqtisadi sabitlik şəraitində sosialyönümlü iqtisadiyyatın formalaşması tam təmin edilib, iqtisadiyyatın şaxələndirilməsi, qeyri-neft sektorunun və regionların inkişafı sürətlənib, sahibkarlığa dövlət dəstəyi gücləndirilib. Azərbaycanda qadınların əhalinin 50,1 faizini təşkil etdiyini deyən S.Babayeva bildirib ki, ölkədə fəaliyyət göstərən fərdi sahibkarların 21,5 faizi qadınlardır. Ölkədə qadınların əmək bazarında kişilərlə bərabərhüquqlu iştirakına imkan yaradılması onların idarəetmə, biznes və hakimiyyət strukturlarında daha geniş təmsil olunması ilə nəticələnir. Bu gün Azərbaycanda hər 100 təhsil alanın orta hesabla 47 faizini, işçi qüvvəsinin 49 faizini, məşğul əhalinin 48 faizini, elmi işçilərin isə 53 faizini qadınlar təşkil edir. Qadın sahibkarlığın inkişafı üzrə komissiyanın fəallığının real nəticəsi olaraq bu günədək 400-dək qadın iş adamı Azərbaycan Sahibkarlar Konfederasiyasının ətrafında toplana bilib.






Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Ziyad Səmədzadə diqqətə çatdırıb ki, bugünkü tədbir Azərbaycan qadın hərəkatının inkişafında özünəməxsus rol oynayacaq. Azərbaycan qadınının uğurları kifayət qədərdir. Dövlətimizin iqtisadi inkişafında sahibkar qadınlarımızın rolu böyükdür. Sahibkarlığın, xüsusilə də qadın sahibkarlığının inkişafı ölkə rəhbərliyinin ən çox önəm verdiyi məsələlərdəndir. Bu gün Azərbaycan qadınlarının ölkənin sosial-iqtisadi, ictimai-siyasi həyatda rolu getdikcə artır.

Bu yaxınlarda Vergi Məcəlləsində dəyişikliklər ediləcəyini deyən komitə sədri bildirib ki, təklif olunan dəyişiklik kiçik sahibkarlar üçün geniş imkanlar açacaq.

Sonra çıxış edən iqtisadiyyat nazirinin müavini Niyazi Səfərov deyib ki, ölkəmizdə sahibkarlıq fəaliyyətinin həyata keçirilməsi üçün münbit şərait yaradılıb. Fəxr hissi ilə demək olar ki, Azərbaycan sürətlə inkişaf edir. Ölkəmizdə sahibkarlığa, qadın sahibkarlara xüsusi önəm verilir. Bu, özünü bütün beynəlxalq hesabatlarda Azərbaycanın irəli pillələrdə olmasında göstərir.

Konfransda çıxış edən Azərbaycan Respublikasi Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyasının prezidenti Məmməd Musayev, GIZ, SLRD-nin layihə rəhbəri Gülnarə Məmmədova, Rusiya Federasiyası Dağıstan Respublikası Qadınlar Cəmiyyətinin sədri İntizar Mamutayeva, Gürcüstan İşgüzar Qadınlar Birliyinin nümayəndəsi xanım Mzii Kereselidce və başqaları bu kimi tədbirlərin keçirilməsinin əhəmiyyətindən danışıb və assosiasiyanın gələcək fəaliyyətinə uğurlar arzulayıblar.

Daha sonra konfrans öz işini “Sahibkarlıqda qadınlar: biznes və ailə öhdəliklərini necə balanslaşdırmaq olar?” və “İnvestorlarla mentor saatı” mövzusunda iclaslarla davam etdirib.

Qeyd edək ki, konfrans çərçivəsində xanımların əl işlərindən ibarət sayca 13-cü olan “Göz nuru, əl əməyi” adlı sərgi təşkil olunub.

# Dağlıq Qarabağ bölgəsinin azərbaycanlı icması Bako Saakyanın Fransaya qanunsuz səfərini pisləyir

“Azərbaycan Respublikası Dağlıq Qarabağ Bölgəsinin Azərbaycanlı İcması” İctimai Birliyi Azərbaycanın işğal olunmuş ərazilərində yaradılmış qondarma rejimin “rəhbəri” Bako Saakyanın Fransaya qanunsuz səfəri ilə bağlı bəyanat yayıb.




İctimai Birlikdən AZƏRTAC-a daxil olan bəyanatın mətnində deyilir:

- Azərbaycan Respublikası Dağlıq Qarabağ bölgəsinin azərbaycanlı icması olaraq, Ermənistan silahlı qüvvələri tərəfindən Azərbaycanın işğal edilmiş ərazilərində yaradılmış qanunsuz rejimin təmsilçisi kimi özünü təqdim edən Bako Saakyanın Fransaya səfərini kəskin şəkildə pisləyir və hiddətimizi ifadə edirik.

ATƏT-in Minsk Qrupunun həmsədrlərindən biri kimi Fransanın öhdəliklərinə zidd olmasına baxmayaraq, bu səfərin qarşısının alınması üçün heç bir tədbir görülmür. Fransa hökumətinin dəfələrlə təkrarlanan bu kimi qeyri-qanuni əməllərə passiv seyrçi münasibəti və təsirli addımlar atmaması qəbuledilməz haldır.

Fransa Cənubi Osetiya, Abxaziya, Krım və Dnestryanı bölgələrindən olan şəxslərə Fransa ərazisinə daxil olmağa icazə verilmədiyi halda, Azərbaycanın işğal olunmuş ərazilərində yaradılmış qondarma rejimin nümayəndələrinə xüsusi rəğbət göstərir. Həmçinin Fransa hökuməti Azərbaycanın Dağlıq Qarabağ bölgəsinin azərbaycanlı icmasının etnik təmizləməyə məruz qaldığını və fundamental hüquqlarının kobud şəkildə pozulduğunu çox yaxşı bildiyi halda, bu kimi birtərəfli və separatizm xarakterli addımların həyata keçirilməsinə göz yumur, insan hüquqlarının ayrılmazlığı və bərabərhüquqluluq prinsiplərini pozur. Bu mənada, Fransa müxtəlif təəssübkeşlik hissləri ilə ayri-seçkiliyə əsaslanan siyasət yürüdür.

Azərbaycan vətəndaşları Fransa səfirliyindən viza almaqda çətinlik çəkdikləri və bürokratik süründürməçiliklə üzləşdikləri halda, müharibə cinayətkarı olan Bako Saakyan saxta sənədlərlə Şengen viza tələblərini kobud şəkildə pozaraq Fransa ərazisinə daxil olur. Bu qanunsuz səfərin həyata keçirilməsi Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin danışıqlar yolu ilə həllinə maneə olmaqla yanaşı, Azərbaycanın işğal olunmuş ərazilərində yaradılmış qondarma rejimin təşviqinə xidmət edir. Nəhayət, Fransa tərəfi başa düşməlidir ki, bu kimi qərəzli və qeyri-obyektiv əməllər Dağlıq Qarabağın Azərbaycan icması və bütövlükdə Azərbaycan ictimai rəyində Fransanın nüfuzuna ciddi xələl yetirir. Əgər Fransa münaqişənin həllinə həqiqətən töhfə vermək niyyətindədirsə, onda ATƏT-in Minsk Qrupunun həmsədr ölkəsi kimi qərəzsizliyini təmin etməli, BMT Təhlükəsizlik Şurasının qətnamələrinin tələblərinə uyğun olaraq Azərbaycanın işğal olunmuş ərazilərindən Ermənistan qoşunlarının çıxarılmasına çalışmalı və Dağlıq Qarabağın erməni və azərbaycanlı icmalarını birlikdə Parisə dəvət etməli və bu iki icma arasında bərabərhüquqlu əsasda etnik barışığı və dialoqu dəstəkləməlidir.

Fransa tərəfi də bilməlidir ki, etnik təmizləmə siyasətinə məruz qalmış və doğma torpaqlarından qovulmuş azərbaycanlıların yalnız öz doğma ərazilərinə qayıtması halında regionda dayanıqlı və ədalətli sülhün təmin olunması mümkün ola bilər.

# Ədalət məhkəməsinin aparılması prosesinin rəqəmsallaşması dövrün tələbidir



***Ölkəmizdə dövlət xidmətlərinin həyata keçirilməsində informasiya-kommunikasiya texnologiyalarından istifadə olunması, innovativ həllərin tətbiqi dövlət siyasətinin prioritetlərindən biri olmaqla elektron hökumətin inkişafı və rəqəmsal hökumətə keçid ilə bağlı mühüm addımlar atılır. O cümlədən bu günlərdə 100 illik yubileyini qeyd edən Azərbaycan ədliyyəsinin davamlı inkişafı çərçivəsində məhkəmə fəaliyyətinin elektronlaşdırılması, ədalət mühakiməsi prosesinin rəqəmsallaşması sahəsində ardıcıl və məqsədyönlü tədbirlər həyata keçirilir. Bunununla bağlı Azərbaycan Respublikası ədliyyə nazirinin müavini, Məhkəmə-Hüquq Şurasının üzvü, hüquq elmləri doktoru Azər Cəfərov AZƏRTAC-ın suallarını cavablandırıb.***

**- Müasir dünyada insanların həyat tərzini, hər hansı fəaliyyət sahəsini informasiya texnologiyaları olmadan təsəvvür etmək mümkün deyil. Texnoloji yeniliklərin sirayət etdiyi sahələrdən biri də məhkəmə fəaliyyətidir. Bu mənada innovativ, eyni zamanda, rəqəmsal texnologiyaların yaratdığı üstünlüklər barədə məlumat oxucularımız üçün maraqlı olardı.**

- Doğrudur, getdikcə daha sürətlə inkişaf edən rəqəmsal texnologiyalar cəmiyyət həyatının müxtəlif sahələrinə daha çox nüfuz etməyə başlayır, məişətin, istirahətin və peşə fəaliyyətinin ayrılmaz hissəsinə çevrilir. Bu faktı nəzərə alan dövlətimizin başçısı İlham Əliyev deyib: **"Yeni texnologiyaların, o cümlədən İKT sferasının inkişafı bu gün Azərbaycanı fərqləndirən cəhətlərdən biridir və bizim uğurlu gələcəyimizi təmin edəcəkdir".**

Bu gün dünyada, o cümlədən Azərbaycanda informasiya texnologiyalarının tətbiqi daha geniş vüsət alır. Bir müddət əvvəl Moskva Dövlət Universitetinin rektoru Viktor Sadovniçi müsahibələrinin birində deyib ki, təkcə 20 il ərzində - 1992-2012-ci illərdə kompüterlərin sürəti səkkiz min dəfə artıb. Bu ilin yayında keçirilmiş VIII Peterburq Beynəlxalq Hüquq Forumunda dəfələrlə, o cümlədən Rusiya Federasiyasının Baş naziri Dmitri Medvedev tərəfindən qeyd olunmuşdu ki, rəqəmsal texnologiyalar məhkəmə sahəsinə də fəal surətdə daxil olmaqdadır.

Bütün bunlar onu göstərir ki, yaxın perspektivdə ən müasir informasiya texnologiyaları və innovasiyalardan istifadə edilməsə, yüksək texnologiyalı məhkəmə infrastrukturu yaradılmasa, hüququn müxtəlif sahələrinə aid norma və institutların işi rəqəmsal texnologiyalarla uzlaşdırılmasa, məhkəmələrin fəaliyyətində hüquq mühəndisliyinə geniş yer verilməsə ədalət mühakiməsinin həyata keçirilməsi kifayət qədər çətinləşər.

İlk baxışdan inandırıcı görünməsə də, mütəxəssislərin proqnozuna görə, 2030-cu ildə hüquqşünasların, o cümlədən hakimlərin funksiyalarının 80-85 faizini robotlaşmış texnologiyalar əvəz edəcək. Bruklin Hüquq Məktəbinin dekanı Nik Allard gələcəkdə insanla robot arasındakı fərqlərin itəcəyi fikrini irəli sürərək deyib: **"Ola bilər hətta sizin idarəetmə pultunuzun ölçüsü kiçilsin və üzərinizə tikilsin, insanlar isə bəzi süni bədən hissələrinə sahib olsun. Bu yeni dünya ayrı-ayrılıqda insanlar və maşınlardan yox, hubotlardan (red.- ingilis dilindəki human və robot sözlərindən) ibarət olacaq".** Yəni, daha çox Albert Eynşteynə aid edilən iqtibasa görə, bir vaxt texnologiya insanların ünsiyyət imkanlarını üstələyəcək.

Zamanın bu çağırışlarına cavab olaraq, son illər dünyanın bir çox ölkələrində məhkəmə, prokurorluq, vəkillik, ilkin təhqiqat və digər hüquq-mühafizə orqanlarının fəaliyyətində rəqəmsal texnologiyaların tətbiqi ilə bağlı böyük işlər görülür. Məsələn, bu gün İsveç və bir çox başqa ölkələrdə daşınmaz əmlak sahəsində bütün sövdələşmələr blokçeyn texnologiyaları vasitəsilə həyata keçirilir. Sinqapur isə ədalət mühakiməsi sistemində texnologiyalardan geniş istifadə etməklə, elektron məhkəmə sistemini mərhələli şəkildə inkişaf etdirir və uzun müddətdir ki, bu hədəfə doğru gedir. Artıq inzibati xətalarla bağlı işlərə hakimin iştirakı olmadan baxılır.

**- Son illər Azərbaycanda da məhkəmə fəaliyyətinin elektronlaşdırılması ilə bağlı ardıcıl tədbirlər görülməkdədir...**

- Bəli, ölkəmizdə müxtəlif sahələrdə, o cümlədən məhkəmələrin fəaliyyətində ən yeni texnologiyaların tətbiqi məsələləri dövlətimizin hər zaman diqqətdə saxladığı prioritetlərdəndir. 2014-cü ilin fevral ayında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə müasir informasiya-kommunikasiya texnologiyalarının tətbiqini təmin edən "Elektron məhkəmə" informasiya sistemi yaradılıb.

"Elektron hökumət"in tərkib hissəsi olan "Elektron məhkəmə" informasiya sistemi məhkəmə hakimiyyətinin və ədalət mühakiməsinin işini asanlaşdıran sistemdir və o, vətəndaşın məhkəməyə müraciət etmək hüququnun yaranması anından məhkəmə qərarının icrasının tamamlanmasına qədər bütün prosesi əhatə edir.

Bu sistemin tətbiqi məhkəməyə müraciət imkanlarının genişlənməsinə, ədalət mühakiməsinin həyata keçirilməsində süründürməçilik və sui-istifadə hallarının qarşısının alınmasına, şəffaflıq və operativliyin təmin edilməsinə, məhkəmə qərarlarının icrasına nəzarətin səmərəliliyinin artırılmasına, elektron kargüzarlığın və sənəd dövriyyəsinin təmin olunmasına xidmət edir.

"Elektron məhkəmə"nin mühüm komponentlərindən biri fiziki və hüquqi şəxslərə məhkəmə sistemi barədə, o cümlədən ölkənin interaktiv xəritəsi şəklində müfəssəl məlumatlar təqdim edən vahid məhkəmə portalıdır. Vətəndaşlar bu portal vasitəsilə məhkəmələrin strukturu, növü, yurisdiksiyası, ünvanı və onlarla əlaqə yaratmaq üsulları - poçt və elektron ünvanları, telefon nömrələri, eləcə də hakimlərin təhsili və hüquq təcrübəsi barədə məlumatlar əldə edə bilirlər.

Onu da deyim ki, sənədlərin hazırlanması və məhkəməyə təqdim edilməsi prosesini asanlaşdırmaq üçün portal vətəndaşları dövlət rüsumunun məbləği, iddia, şikayət, etiraz və xahiş ərizələrinin nümunələri ilə tanış edir. Bütünlüklə "Elektron məhkəmə" sisteminə inteqrasiya olunan portal məhkəmə işlərinin vəziyyəti, o cümlədən onların, məhkəmə iclaslarının, bütün kateqoriyalardan olan işlər üzrə çıxarılmış qərarların sayı və s. haqqında məlumatları real vaxt rejimində təqdim edir.

Eyni zamanda, portaldan əlavə hər bir məhkəmə üçün müfəssəl məlumatları əks etdirən ayrıca veb-saytlar yaradılıb.

Həmçinin elektron məhkəmə sisteminin Naxçıvan Muxtar Respublikası daxil olmaqla ölkə üzrə tətbiqi istiqamətində əməli işlər görülüb və bu gün sistem respublika məhkəmələrinin və icra qurumlarının ümumən yarıdan çoxunu əhatə edir. Bu sahədə ölkəmizdə bütövlükdə görüləsi işlərin əksər hissəsi artıq icra olunub. Bu sistemin yaxın gələcəkdə qərb və Şirvan regionlarını da əhatə edəcəyi nəzərdə tutulur.

**- Belə qənaətə gəlmək olar ki, "Elektron məhkəmə" informasiya sistemi insanların müraciət imkanlarını artırmaqla ədalət mühakiməsinin əlçatanlığını asanlaşdırır. Bu sistem məhkəmə fəaliyyətində şəffaflığı da təmin edirmi?**

- Əlbəttə, təmin edir. Prezident İlham Əliyev Şəki Məhkəmə Kompleksinin açılışında keçirdiyi müşavirədəki çıxışında xüsusi vurğulayıb ki, məhkəmə-hüquq sistemi maksimum dərəcədə şəffaf olmalıdır. Elektron məhkəmə sisteminin tətbiqi həm də şəffaflığa xidmət edir.

Qeyd etməliyəm ki, hər hansı bir şəxs barədə məlumatın dərc edilməsi konfidensiallıq baxımından həssas məsələ olduğundan şəffaflığın təmin edilməsi heç də asan olmayıb və biz kompromis yanaşma formalaşdıraraq vahid məhkəmə portalı çərçivəsində "Məhkəmə prosesi iştirakçısının şəxsi kabineti"ni yaratmışıq.

Bununla da proses iştirakçıları elektron imza ilə təsdiqlənmiş elektron iddia ərizəsi və digər sənədlər vermək, məhkəmə işinin materialları ilə ətraflı tanış olmaq imkanı əldə ediblər. Bu kabinet vasitəsilə onlar təyin olunmuş proseslər barədə uzaqdan, yəni SMS, elektron məktub və digər üsullarla xəbər tuta, məhkəmə qərarlarını isə elektron formatda hakimin elektron imzası ilə əldə edə bilirlər.

"Şəxsi kabinet"in matrisası proses iştirakçıları üçün məhkəmələrlə elektron formatda əlaqə yaratmaq, məsələn, məhkəmə araşdırmasının başqa vaxta keçirilməsi zərurəti və s. ilə bağlı məhkəməyə elektron məktubla müraciət etmək imkanı yaradır. Bundan başqa, "Şəxsi kabinet" bütün məhkəmə instansiyaları üzrə ilkin məhkəmə, apellyasiya və kassasiya baxışları barədə vətəndaşlara iştirakçısı olduğu məhkəmə prosesini izləməyə, icra icraatının gedişi ilə tanış olmağa şərait yaradır, onlara qarşı qaldırılmış bütün məhkəmə iddiaları barədə elektron məktub vasitəsilə xəbər tutmaq imkanı verir və s.

Bir məqamı da xüsusi qeyd etmək istərdim. Məhkəməyə "Şəxsi kabinet"dən müraciət edildikdə əvvəllər ödənilməsi yalnız iş saatlarında və bank vasitəsilə mümkün olan məhkəmə rüsumunun ödənişi barədə məsələ ortaya çıxır. Bu problemin həlli üçün Ədliyyə Nazirliyi Mərkəzi Bank ilə birlikdə "Məhkəmə rüsumlarının elektron ödəniş sistemi"ni yaradıb.

Hazırda bu sistem vasitəsilə fiziki və hüquqi şəxslər iddia ərizəsi elektron şəkildə daxil olduqda, bilavasitə bank kartlarının köməyi ilə "Şəxsi kabinet"də onlayn məhkəmə rüsumunu ödəmək imkanına malikdirlər. Həmçinin bu ödənişi "Dövlət rüsumlarının ödənilməsi üçün dövlət portalı"nda, eləcə də məhkəmə binalarında quraşdırılmış nağd ödəniş terminalları vasitəsilə həyata keçirmək mümkündür. Məhkəmə rüsumunun elektron ödənilməsindən sonra bütün məlumatlar həmin sistemlə eyni vaxta yaradılmış "Məhkəmə rüsumlarının vahid reyestri"ndə cəmləşir ki, bu da ödəmələr üçün lazım olan maliyyə hesabatlarını həyata keçirməyə, eləcə də məhkəmə rüsumlarının ödənilməsinə dair məhkəməyə təqdim olunmuş məlumatların doğruluğunu yoxlamağa imkan verir.

Beləliklə, sistem və reyestr dərhal məhkəmə sistemi üçün vacib olan bir neçə məsələni həll edir: məhkəməyə müraciəti asanlaşdırır; iddiaçıların qərəzli davranış hallarının, o cümlədən məhkəmə rüsumunun ödənilməsi barədə eyni qəbzin digər işlərlə bağlı istifadəsinin qarşısını alır; məhkəmə rüsumlarının ödənişləri üzrə daha ətraflı maliyyə hesabatlarının və məhkəmələrin səmərəliliyinin qiymətləndirilməsini təmin edir və s.

**- Azər müəllim, əvvəldə qeyd etdiyiniz kimi, dünya praktikasında tətbiq olunan blokçeyn texnologiyasından məhkəmə fəaliyyətində də istifadə etmək mümkündürmü?**

- Bəli. Ədalət mühakiməsinin aparılması prosesinin rəqəmsallaşdırılması dövrün tələbi olmaqla blokçeyn texnologiyasına əsaslanır. Blokçeyn məlumatların saxlanması vasitəsi və yaxud tranzaksiyaların, müqavilələrin, sövdələşmələrin rəqəmsal reyestridir. Bu texnologiyanın tarixi 2009-cu ildə ilk kriptovalyuta olan Bitcoinin yaranması ilə başlayır. Blokçeyndə verilmiş kreditlər, əmlak hüququ, yol hərəkəti qaydalarının pozulması, nikahla bağlı, daha doğrusu, demək olar ki, hər şey haqqında məlumatları saxlamaq mümkündür.

Bu texnologiya sistemə saxta blok əlavə etməyə və ya mövcud bloku sistemdən çıxarmağa imkan vermir, yəni, sənədlər giriş imkanları məhdud olmaqla daim nəzarətdə saxlanılır və yalnız istifadəçisi tərəfindən icazə verildiyi təqdirdə, həmin informasiya ilə tanış olmaq mümkündür. Sistem əldə olunan bütün yeni sənədləri, istintaq hərəkətlərinin protokollarını, məhkəmə hökmünü və ya tibbi qeydləri xronoloji ardıcıllıqla, dəqiq şəkildə işə "tikməyə" imkan verir. Məhz bunun sayəsində heç nə itmir və bütün məlumatlar ovuc içindəymiş kimi görünür.

Ümumiyyətlə isə məhkəmə fəaliyyətində elektron kommunikasiyaların və rəqəmsal texnologiyalarının tətbiqi, məhkəmə icraatının, məhkəmə qərarlarının icra edilməsinin avtomatlaşdırılması işinin genişləndirilməsi, cinayətkarlıq üzərində distant nəzarətin həyata keçirilməsi, avtomatlaşdırılmış cəza təyinetmə sisteminin yaradılması və s. kimi problemlər bütün dünyada, inkişaf etmiş dövlətlərdə, eləcə də postsovet məkanında dərindən öyrənilir.

Məsələn, rusiyalı tədqiqatçılar cinayət işlərinin vahid informasiya portalında rəsmiləşdirilməsinin elektron texnologiyasını yaradıblar. Bütün istintaq məlumatları məhz bu informasiya portalına yerləşdirilir. Bunun sayəsində prosessual status (təqsirləndirilən şəxs, zərərçəkmiş, iddiaçı və s.) müəyyənləşən andan etibarən proses iştirakçıları sistemə daxil olmaq imkanı əldə edirlər. Elektron cinayət işinin əsas səhifəsində, işi aparan orqan və konkret vəzifəli şəxs də daxil olmaqla, iş haqqında ümumi məlumat yerləşdirilir, müddət və hansı maddələr üzrə cinayət işinin qaldırıldığı (ittiham irəli sürüldüyü) barədə qeyd aparılır.

Eyni zamanda, yaxın perspektivdə ərizələrin daxil olmasından başlayaraq cəzaların təyin edilməsinə qədər, əksər proseslərin rəqəmsallaşdırılması nəzərdə tutulur. Hazırda kağızdan geniş istifadə edilməsi materialların saxtalaşdırılması və dəyişdirilməsi, prosessual prosedurların vaxtında yerinə yetirilməməsi, cinayət işinin itirilməsi risklərini daşıyır və bütövlükdə cinayət prosesi qapalı aparılır. Yeni "E-cinayət işi" proqramının işlənib-hazırlanması bu problemləri aradan qaldıracaqdır. Artıq Qazaxıstanda bu sahədə müəyyən təcrübə əldə edilib. Fikrimcə, belə bir proqramın tətbiqi cinayət prosesinin araşdırılmasında nizam-intizamın və dəqiqliyin, düzgünlüyün təmin olunmasında, dəlil-sübutların toplanması və prosessual sənədlərin tərtib edilməsi prosedurunun sadələşdirilməsində əhəmiyyətli ola bilər.

Başqa ölkələrdə də oxşar layihələr işlənib-hazırlanır, "rəqəmsal ədalət məhkəməsi"nin ayrı-ayrı elementləri daha çox inkişaf etmiş dövlətlərlə yanaşı, artıq Gürcüstanda, Baltikyanı ölkələrdə, Səudiyyə Ərəbistanında və s. tətbiq olunmaqdadır.

**- Bir neçə ildir ki, ölkəmizdə də "Elektron məhkəmə" informasiya sistemi tətbiq olunmaqdadır. Bu sistem məhkəmə fəaliyyətinin səmərəliliyinə necə təsir göstərir?**

- Bildirməliyəm ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmizin hərtərəfli inkişafı və mülki sənəd dövriyyəsinin sürətlə artması, eyni zamanda, ədalət mühakiməsinə çıxışın xeyli asanlaşması məhkəmələrdə baxılan işlərin sayının kəskin çoxalmasına gətirib çıxarıb. Bir vaxtlar - 2016-cı ildə məhkəmələrdə baxılan mülki xarakterli işlərin sayı 470 mini ötmüşdü ki, bu da yeni məhkəmə sisteminə qədərki dövrlə - 1999-cu illə müqayisədə 21 dəfə çox idi. Görülmüş tədbirlər, o cümlədən qanunvericiliyin təkmilləşdirilməsi nəticəsində növbəti ildə bu növ işlərin sayının 80 min azaldılmasına nail olunsa da, bu göstəricinin özü də olduqca yüksəkdir.

Sözsüz ki, iş sayının əhəmiyyətli dərəcədə artması məhkəmələrin hədsiz yüklənməsinə səbəb olur və ədalət mühakiməsinin keyfiyyətlə yerinə yetirilməsinə mənfi təsir göstərir.

Bunun üçün sloveniyalı ekspertlərlə birgə "Elektron məhkəmə" bazasında əmr icraatı işləri üçün avtomatlaşdırılmış məhkəmə baxışı sistemi işlənib hazırlanıb və 2017-ci ilin martından etibarən uğurla tətbiq edilir. Qısaca izah edim ki, əmr icraatı qaydasında baxılan işlərə daha çox mübahisəsiz pul və əmlak tələbləri ilə bağlı işlər aiddir və hazırda onlar mülki xarakterli işlərin təxminən üçdə birini təşkil edir. Sözügedən sistemin mahiyyəti isə ondan ibarətdir ki, öz sistemlərini "Elektron məhkəmə" sisteminə uyğunlaşdıran iri iddiaçılar əmr icraatı işləri üzrə məhkəmələrə elektron ərizələr göndərmək imkanı əldə edirlər və bu ərizələrin çoxluğuna baxmayaraq, elə həmin gün, yaxud ən geci ertəsi gün elektron məhkəmə qərarını alırlar. Məsələn, məhkəmə xidmətlərindən yararlanan iri istifadəçilərdən biri bu yaxınlarda bir dəqiqə ərzində Bakının rayon məhkəməsinə borcun ödənilməməsi barədə 300 elektron iddia ərizəsi verib və 15 dəqiqə ərzində onların hamısına dair məhkəmə qərarları alıb.

Bu işlərə məhkəmədə bir hakim tərəfindən baxılır. Beləliklə, əmr icraatı işlərinə baxan digər hakimlər ağır yükdən tamamilə azad olurlar. Həmin işlər üzrə çıxarılan bütün qərarlar icra orqanlarına da elektron formatda göndərilir. Bu isə qərarları avtomatlaşdırılmış qaydada icra etməyə və məhkəmə icraçılarını səhih informasiya ilə təmin etməyə imkan verir.

İndiki vəziyyət belədir ki, bütün ölkə üzrə bu kateqoriyadan olan işlərə baxılmasının öhdəsindən cəmi 4 hakim və 30 məhkəmə işçisi gələ bilər, halbuki elektron sistemin tətbiqinədək bu prosesə 270-dən artıq hakim və 320-dən çox məhkəmə işçisi cəlb olunurdu.

Eyni zamanda, məlumat üçün bildirim ki, əmr icraatı məsələlərini notariusların eyni tipli icra qeydi ilə həll etmək daha asan və daha səmərəli bilindiyindən qanunvericiliyə edilmiş dəyişikliyə əsasən bu funksiyanı növbəti ildən müvafiq elektron sistem vasitəsilə notariuslar həyata keçirəcəklər.

Bütün bunlar, gözlənildiyi kimi, maliyyə xərclərinin əhəmiyyətli dərəcədə azalmasına gətirib çıxarır.

**- Həqiqətən də məhkəmə fəaliyyətində texnoloji yeniliklərin tətbiqi işin səmərəliliyinin artırılmasına xidmət etməklə böyük maraq doğurur...**

- Bu yeniliklər təkcə deyilənlərlə məhdudlaşmır. Rəqəmsal texnologiyanın məhkəmələrin fəaliyyətinə tətbiqi prosesi bu ilin martında "Elektron məhkəmə" informasiya sistemi strukturunda "Məhkəmə qərarlarının vahid bazası"nın yaradılması ilə daha da intensivləşib.

Vahid baza konkret iş üzrə bütün hakimlərin elektron imzası ilə təsdiq olunmuş məhkəmənin yekun qərarını özündə cəmləyən informasiya sistemidir. Bazanın yenilənməsi real vaxt rejimində baş verir - hakimlərin qərarı ona "Elektron məhkəmə" informasiya sistemində elektron imzanın tətbiqi vasitəsilə düşür.

"Məhkəmə qərarlarının vahid bazası" elektron sisteminin geniş parametrlər dairəsi - işlərin, mülki mübahisələrin və məhkəmələrin növləri, konkret məhkəmə və hakimlər, qanunvericilik normaları və beynəlxalq müqavilələrin, konvensiyaların və insan hüquqları üzrə Avropa Məhkəməsinin qərarlarının tətbiqi təcrübəsi, əməlin ağırlıq dərəcəsi, çıxarılan qərarlar, ittihamedici və bəraətverici hökmlər üzrə axtarışlar aparmağa şərait yaradır.

Bu sistem axtarışı, həmçinin təqsirləndirilənin məhkumluğunu, cinsini, yaşını (yetkinlik yaşına çatmadığını) və s. açıqlamadan, onu xarakterizə edən digər məlumatlar üzrə aparmağa imkan verir.

Bazanın əsas məqsədi hakimlərə, vəkillərə, həmçinin digər hüquqşünaslara məhkəmə qərarları ilə tanış olmağa şərait yaratmaqdır. Bu, hakimlərə formalaşmış məhkəmə təcrübəsinə yiyələnmək, digər hüquqşünaslara isə onlarla əvvəlcədən tanış olmaqla müdafiəni düzgün qurmaq və işin uğur qazanmaq ehtimalını qiymətləndirmək imkanı verir. Fikrimizcə, bu, potensial olaraq, mülki mübahisələrin alternativ həll üsullarına, məsələn, mediasiyaya marağın artmasına şərait yarada bilər.

Bundan əlavə, müasir informasiya texnologiyaları məhkəmələrin idarə edilməsi sahəsində də geniş tətbiq olunur. "Elektron məhkəmə" informasiya sisteminin tərkib hissəsi olan "Məhkəmənin nəbzi: İdarəetmədə inqilab" layihəsi toplanmış elektron statistik məlumatlara əsaslanaraq qısa müddət ərzində müxtəlif analitik hesabatların hazırlanmasını, məhkəmələrin və hakimlərin fəaliyyətinin qiymətləndirilməsini və onların işinin səmərəliliyinin müəyyən edilməsini mümkün edir.

Elmi cəhətdən əsaslandırılmış sistem olan bu layihə Məhkəmə-Hüquq Şurasına, Ədliyyə Nazirliyinə, yuxarı instansiya məhkəmələrinə, məhkəmə sədrlərinə və hakimlərə statistik, o cümlədən ümumiləşdirilmiş göstəricilərlə dərhal tanış olmaq imkanı verir, məhkəmələr arasında məhkəmə büdcəsini, hakim ştatlarını və məhkəmə işçilərini düzgün bölüşdürməyə kömək edir.

Yeri gəlmişkən, deyim ki, məhkəmə sisteminə elektron idarəetmənin daha mütərəqqi tətbiqi baxımından bu layihə Avropa Şurasının "Ədliyyənin Kristal Tərəzisi" müsabiqəsinin mükafatına layiq görülüb.

Azərbaycanda rəqəmsal texnologiyalar cinayət-mühakimə icraatında da fəal tətbiq edilir. Ölkə Prezidentinin penitensiar sahədə fəaliyyətin təkmilləşdirilməsinə və cəza siyasətinin humanistləşdirilməsinə dair 2017-ci il 10 fevral tarixli Sərəncamı bu sahədə mühüm "Yol xəritəsi" rolunu oynamaqla hüquqi islahatların yeni mərhələdə davamına rəvac verib, həmçinin cəzaların icrası və qətimkan tədbirlərinin tətbiqi zamanı müasir informasiya-kommunikasiya texnologiyalarından istifadəni təmin etmək məqsədilə elektron nəzarət vasitələrinin tətbiqini şərtləndirib.

Cinayət Məcəlləsinə edilmiş dəyişikliklərlə daxil olmuş yeni cəza növü - azadlığın məhdudlaşdırılması cəzasına, məhkəmənin müəyyən etdiyi hallarda şərti məhkum edilmiş və ya cəzadan şərti olaraq vaxtından əvvəl azad olunmuş şəxslər üzərində nəzarətin gücləndirilməsi, habelə barəsində ev dustaqlığı qətimkan tədbiri seçilmiş şəxslər üçün elektron qolbaq tətbiq olunur ki, bu da probasiya xidmətinin əməkdaşlarına həmin şəxslər üzərində gecə-gündüz distant nəzarəti həyata keçirməyə imkan verir.

Bu mobil elektron qurğunun cinayət ədliyyəsi fəaliyyətində tətbiqi məhkəmələrə cəmiyyətdən təcridlə bağlı olmayan alternativ cəza tədbirlərini geniş tətbiq etmək, cinayət prosesinin məhkəməyə qədərki mərhələlərində prosessual məcburiyyət tədbirlərini xeyli azaltmaq məqsədi daşıyır.

**- Azər müəllim, bu günlərdə yüz illiyini qeyd edən Azərbaycan ədliyyəsinin davamlı inkişafı naminə həyata keçirilən bütün bu tədbirlərin, tətbiq olunan yeniliklərin ədliyyə və məhkəmə sisteminin fəaliyyətinin müasirləşməsinə xidmət etdiyi şübhə doğurmur. İnanırıq ki, qarşıda duran vəzifələr bundan sonra da uğurla icra olunaraq yeni-yeni nailiyyətlər qazanılacaqdır...**

- Bir əsrlik tarixi olan Azərbaycan ədliyyəsinin ölkəmizin hüquq sistemində özünəməxsus yeri və rolu var. Ulu öndər Heydər Əliyevin diqqət və qayğısı sayəsində təkmil bir struktura çevrilən Azərbaycan ədliyyəsi bu gün möhtərəm Prezidentimiz İlham Əliyevin rəhbərliyi ilə uğurlu islahatlar aparılmaqla təkmilləşir və müasirləşir. Ədliyyə və məhkəmə sistemində innovasiyaların tətbiqi, bu sahədə fəaliyyətin rəqəmsallaşması da dövrün tələbidir. Bu istiqamətdə görülən işlər heç də kifayət deyil. Çünki təkmilləşmə davamlı olan bir prosesdir. Sözün qısası, bu prosesin əvvəli var, amma sonu yoxdur.

Ona görə də yaxın perspektivdə "Elektron məhkəmə" informasiya sisteminin funksiyalılığının genişləndirilməsi yolu ilə onun daha da təkmilləşdirilməsi nəzərdə tutulur. Məsələn, elektron arxivlərin və analitik hesabatların hazırlanması, statistik materialların avtomatlaşdırılmış qaydada emalı, hakimlərin və məhkəmələrin fəaliyyətinin qiymətləndirilməsi ilə bağlı intellektual modulun, penitensiar xidmət üçün informasiya resursunun alt-sisteminin yaradılması qarşıda duran əsas vəzifələrdir.

Elektron ədalət mühakiməsinin yaradılmasında müəyyən çətinliklər də var. Bununla bağlı lazımi tədbirlər görülərək, sistemin təkmil fəaliyyəti üçün ayrı-ayrı prosessual normaların tətbiqinə vahid məhkəmə yanaşması formalaşdırılır, dövlət qurumları, həmçinin məhkəmə sədrləri və hakimlər bu sistemlə işləməyə təşviq olunur, onlara məhkəmələrin elektronlaşdırılması aşılanır, eyni zamanda, bu sahədə istifadəçilərin müvafiq vərdişlərə yiyələnməsinə, məlumatlılığın artırılmasına xüsusi diqqət yetirilir.

Beləliklə, məhkəmə sistemində tətbiq olunan innovasiya layihələrinin qısa icmalı onu göstərir ki, bizim bu gün dünyada müşahidə etdiyimiz yüksək texnologiya meynstrimi (red. - əsas xətt), həm də yaxın gələcəkdə ona gətirib çıxara bilər ki, bir çox işlər üzrə ədalət mühakiməsinin aparılması əsasən rəqəmsal texnologiyalar vasitəsilə həyata keçirilsin.

Rusiya Konstitusiya Məhkəməsinin sədri Valeri Zorkinin təbirincə desək, "biz bir gün yuxudan oyanıb görərik ki, yaşadığımız o dünya artıq yoxdur". Bu proqnozu tam şəkildə ədalət mühakiməsi sahəsinə də aid etmək olar.

Lakin texnologiyalar müxtəlif fəaliyyət sahələrinə, o cümlədən ədalət mühakiməsi sahəsinə nə qədər nüfuz etsə də, əminik ki, insan amili, heç şübhəsiz, öz həlledici rolunu qoruyub saxlayacaq. Avropa Şurası rəsmisinin qeyd etdiyi kimi, informasiya texnologiyalarının tətbiqindən sonra da ədalət ilahəsi - Femida öz əlində Blekberri telefonu deyil, qılınc və tərəzi tutacaq.

Həqiqətən də informasiyalaşma qeyri-səmərəli işləyən sistemi səmərəli sistemə çevirə bilməz, lakin yaxşı işləyən sistemin daha səmərəli və daha fəal işləməsinə yardım edə bilər.

**- Maraqlı müsahibəyə görə təşəkkür edir, bilavasitə insanlara, onların hüquqlarının etibarlı təminatına yönəlmiş məhkəmə sisteminin təkmilləşməsi işində Azərbaycan ədliyyəsinə uğurlar arzulayırıq.**

# Bakıda Ümumdünya Antidopinq Agentliyinin Təsisçilər Şurasının və İcraiyyə Komitəsinin iclasları keçirilib






Bakıda Ümumdünya Antidopinq Agentliyinin (WADA) Təsisçilər Şurasının və İcraiyyə Komitəsinin iclasları keçirilib.

AZƏRTAC xəbər verir ki, tədbirdə gənclər və idman naziri Azad Rəhimov, WADA-nın prezidenti Kreyq Ridi, baş direktor Olivier Niqli, İcraiyyə Komitəsinin və Təsisçilər Şurasının üzvləri, rəsmilər və digər qonaqlar iştirak ediblər.

İclasda ötən ilki fəaliyyətin yekunlarına dair hesabat məruzəsi dinlənilib, eyni zamanda, 2019-cu ilin noyabrında Polşada keçiriləcək İdmanda Dopinq Konfransının prezidenti və vitse-prezidenti vəzifələrinə seçkilərin qaydaları müzakirə olunub.

Mərasimdə WADA-nın müstəqil normalara riayət edilməsi komitəsinin rəhbərlərinin çıxışları dinlənilib və bu istiqamətdə qəbul edilmiş qərarlar haqqında yeni məlumatlar verilib.

Bununla yanaşı, iclasda qurumun daimi komitəsinin sədrləri tərəfindən maliyyə, tibb, təhsil və digər sahələrdə görülən işlər də müzakirə edilib.

Azərbaycanın gənclər və idman naziri Azad Rəhimov jurnalistlərə müsahibəsində WADA-nın Təsisçilər Şurasının və İcraiyyə Komitəsinin iclaslarının Bakıda ilk dəfə təşkil olunmasının əhəmiyyətini xüsusi vurğulayıb. Nazir bildirib ki, bu cür mötəbər tədbirin Bakıda keçirilməsi Azərbaycanın qısa müddətdə antidopinq sahəsində gördüyü işlərdən WADA-nın razı qalmasının göstəricisidir. Ona görə də bu mötəbər tədbirin keçirilməsində ölkəmizə yüksək etimad göstərilib. İdman ictimaiyyətinin tanınmış simaları Bakıda səfərdədirlər. Burada mühüm məsələlər müzakirə olunur. Bildiyiniz kimi, idmançılarla bağlı böyük mübahisələr baş verir. Bizim əsas məqsədimiz təmiz idman və ədalətli oyunlardır. Ona görə də iclasın bu baxımdan rolunun çox böyük olacağını düşünürük.

# Bakıda "Kulturoloji paradiqmalar və yeniləşən Azərbaycan" mövzusunda beynəlxalq konfrans keçirilir



Dünən Bakı Slavyan Universitetində (BSU) "Kulturoloji paradiqmalar və yeniləşən Azərbaycan" mövzusunda beynəlxalq elmi konfrans öz işinə başlayıb. Bakı Slavyan Universiteti və Türkiyənin Reytinq Akademiyasının birgə təşkilatçılığı ilə keçirilən ikigünlük konfransda dövlət rəsmiləri, səfirlər, təhsil ekspertləri iştirak edirlər.

Konfransı açan BSU-nun elmi işlər üzrə prorektoru, professor Rafiq Novruzov beynəlxalq tədbirin məqsəd və əhəmiyyətindən danışıb.

Sonra BSU-nun rektoru, professor Nurlana Əliyeva Azərbaycan mədəniyyət tarixinə nəzər salaraq xalqımızın milli-mənəvi dəyərlərini mərhələlər üzrə səciyyələndirib. O, Azərbaycan xalqının tarix boyu tolerant və multikultural dəyərlərə üstünlük verdiyini, ədəbi-bədii, ictimai-siyasi, elmi-fəlsəfi fikir tarixində həmin dəyərlərin yerini konkret tarixi fakt və ədəbi-fəlsəfi nümunələrlə diqqət çatdırıb. Rektor bugünkü Azərbaycanı qədim və böyük mədəniyyətin varisi adlandırıb.

Professor Nurlana Əliyeva deyib ki, müasir Azərbaycan Ümummilli lider Heydər Əliyevin müəyyən etdiyi və Prezident İlham Əliyevin bu gün böyük əzmlə, uğurla həyata keçirdiyi məqsədyönlü strategiya sayəsində sosial-iqtisadi sahədə dünyanın sürətlə inkişaf edən dövlətinə çevrilib: **"Regionlarımızın inkişafı, yeni iş yerlərinin açılması, təhsil, səhiyyə kimi sahələrdə aparılan əsaslı islahatlar Azərbaycanın yeniləşməsi, müasirləşməsi deməkdir".**

BSU-nun rektoru bu konfransı Azərbaycanın xarici ölkələrlə humanitar sahədə əməkdaşlığının genişləndirilməsi istiqamətində atılan mühüm addım kimi dəyərləndirib. Ölkəmizin bəşəriyyəti düşündürən geniş spektrli dialoqların, humanitar forumların keçirildiyi mərkəzə çevrildiyini qeyd edən professor Nurlana Əliyeva deyib: **"Respublikamızın paytaxtı sivilizasiyalar arasında körpü rolunu oynayır, nəzəri və praktiki bilik mübadiləsi məqsədilə konstruktiv debatlara ev sahibliyi edir. VI Bakı Beynəlxalq Humanitar Forumu dünya birliyinin qarşısında təhsilin və elmin insan kapitalına yönəldilməsi, innovasiyaların iqtisadiyyatın yeni mənbəyinə çevrilməsi, cəmiyyətdə sabitliyin bərqərar olması üçün multikulturalizm siyasətinin reallaşdırılması, regional tərəfdaşlığın gücləndirilməsi, təhlükəsizlik, sülh və davamlı inkişaf naminə mədəniyyətlərarası dialoqun inkişaf etdirilməsi kimi prinsipial məsələlər irəli sürüb. Bugünkü konfrans da həmin Forumun elm və təhsil sahəsində tövsiyələri əsasında keçirilir".**

"Kaspi" Təhsil Şirkətinin təsisçisi və idarə heyətinin sədri, filologiya üzrə fəlsəfə doktoru Sona Vəliyeva mövzunun aktuallığını vurğulayıb və konfransın işinə uğurlar arzulayıb. Tədbirin əhəmiyyətini diqqətə çatdıran Sona Vəliyeva bildirib ki, müasir dövrdə dünyada baş verən dəyişikliklər bütün sahələr kimi, elm, təhsil və mədəniyyəti də əhatə edir. Xalqlar arasında mədəni əlaqələrin inkişafında mühüm rol oynayan elm və təhsil həm də dünyada sülh, dinclik, əmin-amanlıq yaranmasına böyük təsir göstərir. O, ümidvar olduğunu bildirib ki, Bakı Slavyan Universitetində keçirilən bu konfrans da təhsil və mədəniyyətlərin mübadiləsinə öz töhfəsini verəcək.

Sona Vəliyeva bugünkü Azərbaycanın nailiyyətlərində, müstəqil dövlətimizin əldə etdiyi uğurlarda, onun dünyada tanınmasında Ümummili lider Heydər Əliyevin misilsiz xidmətlərini xüsusi vurğulayıb. Ulu öndərin təhsil sahəsindəki xidmətlərinə toxunan Sona Vəliyeva Onun müstəqil Azərbaycana rəhbərliyi dövründə ölkəmizdə dövlət gənclər siyasətinin formalaşdığını, müvafiq Dövlət proqramlarının icra olunduğunu bildirib.

Ege Universitetinin professoru Fikrət Türkmən Azərbaycanla Türkiyə arasında qurulan dostluq əlaqələrinin qədim tarixə malik olduğunu qeyd edib. O, iki qardaş ölkəni birləşdirən bağların humanitar sahədə özünü yüksək səviyyədə büruzə verdiyini vurğulayıb və bu konfransı "bir millət, iki dövlət" siyasətinə daha bir töhfə adlandırıb.

L.N.Qumilyov adına Avrasiya Milli Universitetinin professoru Şolpan Jarkınbekova konfrans çərçivəsində BSU ilə təmsil etdiyi ali məktəb arasında əməkdaşlıq müqaviləsi imzalanacağı barədə məlumat verib. Avrasiya Milli Universitetində Azərbaycana aid guşə yaradıldığını bildirən qonaq qazaxıstanlı tələbələrin ölkəmizin mədəniyyətinə, tarixinə olan marağından söz açıb.

Təhsil eksperti, professor Şahlar Əsgərov kulturoloji paradiqmaların pedaqoji paradiqmalarla tamamlanmasının vacibliyindən danışıb, respublikamızda müxtəlif humanitar forumların, idman yarışlarının və beynəlxalq tədbirlərin keçirilməsini Azərbaycanın dünyada güclü mövqeyə malik olmasının göstəricisi kimi səciyyələndirib.

Türkiyənin Reytinq Akademiyasının professoru Turqay Berksoy mədəniyyətin cəmiyyətə təsiri barədə fikirlərini bölüşüb.

Çexiya-Azərbaycan Mədəni Əlaqələr Mərkəzinin sədri, Beynəlxalq Diaspor Mərkəzinin Avropa təmsilçisi, Çexiya Texnologiya Universitetinin professoru Azər Kərimov Azərbaycanın tanıdılması məqsədilə xaricdə keçirilən tədbirlərdən söz açıb.

Nəsimi Rayon İcra Hakimiyyətinin başçısı Asif Əsgərov "Kulturoloji paradiqmalar və yeniləşən Azərbaycan" mövzusunda beynəlxalq elmi konfransı Azərbaycanın xarici ölkələrlə humanitar sahədə əməkdaşlığının möhkəmləndirilməsinə yönəlmiş mühüm addım kimi dəyərləndirib.

Konfrans işini noyabrın 16-da bölmə iclasları ilə davam etdirəcək.

**MÜŞFİQƏ**

# Azərbaycan-Rusiya dövlət sərhədinin demarkasiyası üzrə Birgə Komissiyanın 6-cı iclası keçirilib



Moskvada noyabrın 13-15-də Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasında dövlət sərhədinin demarkasiyası üzrə Birgə Komissiyanın 6-cı iclası keçirilib.

Xarici İşlər Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, görüşdə Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasında dövlət sərhədinin demarkasiyası prosesinin davam etdirilməsi ilə əlaqədar məsələlər üzrə müzakirələr keçirilib, 2019-cu il üçün Komissiyanın İş Planı təsdiq olunub və iclasın protokolu imzalanıb.

Görüş mehriban qonşuluq və konstruktiv dialoq ruhunda baş tutub.

Birgə Komissiyanın növbəti iclasının Azərbaycan Respublikasının ərazisində keçirilməsi nəzərdə tutulur. İclasın tarixləri diplomatik kanallar vasitəsilə razılaşdırılacaq.

# UNEC-də Türkiyə universitetləri ilə əməkdaşlığa həsr olunan beynəlxalq konfrans keçirilib



UNEC-də "UNEC və Türkiyə universitetlərinin əməkdaşlıq istiqamətləri: mövcud vəziyyət və perspektivlər" mövzusunda beynəlxalq konfrans keçirilib. UNEC-in təşkilatçılığı və Türk Dünyası Araşdırmaları Vəqfinin (TDAV) dəstəyi ilə keçirilən konfransda universitetin rəhbərliyi və professor-müəllim heyəti ilə yanaşı, Türkiyənin Azərbaycandakı səfiri Erkan Özoral, Türkiyə Cümhuriyyətinin gənclik və idman naziri Dr.Mehmet Muharrem Kasapoğlu, Türk Dünyası Araşdırmaları Vəqfinin rəhbəri Közhan Yazqan, Türkiyə-Azərbaycan Parlamentlərarası Dostluq Qrupunun rəhbəri, AKP İstanbul millət vəkili Şamil Ayrım, İstanbul Universitetinin rektoru, professor Mahmut Ak və digər nüfuzlu qonaqlar iştirak ediblər.

UNEC-in rektoru, professor Ədalət Muradov Azərbaycan Dövlət İqtisad Universitetində Türkiyə türkcəsində tədrisi türkçülüyə verilən önəm və dəyərin ən böyük göstəricilərindən biri adlandırıb. Türk dilində tədrisin TDAV-nin mərhum rəhbəri, professor Turan Yazqanın təşəbbüsü ilə yaradıldığına diqqət çəkən rektor həmçinin Türk Dünyası İqtisadiyyat Fakültəsinin (TUDİFAK) hədəflərindən söz açıb: **"Hədəfimiz TUDİFAK-ın dünya miqyasında keyfiyyət tələblərinə cavab verə biləcək təhsil məkanına çevrilməsidir. Son hədəf isə fakültə bazasında yeni universitet yaradılması və türk dünyası gənclərinin həmin universitetdə təhsil almasına şərait yaratmaqdır".**

Fakültədə bu ildən yeni ixtisasların açıldığını bildirən rektor fakültəyə qəbulda ötən dövrlərlə müqayisədə yüksək bal toplayan abituriyentlərin sayının artdığını qeyd edib. Ə.Muradov TUDİFAK-da təhsilin keyfiyyətinin və cəlbediciliyinin artırılması üçün Türkiyə universitetləri ilə ikili diplom proqramlarının reallaşdırılmasının vacibliyini vurğulayıb.

UNEC-in Türkiyənin nüfuzlu universitetləri ilə əməkdaşlıq etdiyindən söz açan rektor birgə dərsliklərin hazırlanması və elmi məqalələrin tanınmış dərgilərdə çap olunmasının hər iki ölkənin təhsilinin keyfiyyətinin artırılmasında mühüm rol oynayacağını bildirib.

Konfransda çıxış edən Türkiyənin Azərbaycandakı səfiri Erkan Özoral iki qardaş ölkə arasındakı münasibətlərdən söz açıb. Hazırda Azərbaycanın dünya arenasında öz layiqli yerini tutduğunu bildirən səfir hər iki ölkənin qardaşlıq və dostluq münasibətləri ilə yanaşı, bütün sahələrdə uğurlu əməkdaşlıq etdiyini deyib. Türkiyədə təhsil alan azərbaycanlıların sayının ildən-ilə artdığına diqqət çəkən səfir bu istiqamətdə universitetlərin əməkdaşlığının mühüm rol oynadığını vurğulayıb. **"Hədəfimiz hər iki ölkənin akademik səviyyəsinin daha da yüksəlməsidir"**, - deyən türkiyəli diplomat konfransın təşkilinin bu istiqamətdə əhəmiyyətli rol oynayacağına əminliyini ifadə edib.

Tədbirdə çıxış edən nazir Mehmet Muharrem Kasapoğlu Türkiyənin bütün sahələrdə Azərbaycanı dəstəklədiyini bildirib. İki qardaş ölkə arasında münasibətlərin təməlinin tarixi köklərlə bağlı olduğunu söyləyən M.Kasapoğlu Ümummilli lider Heydər Əliyevin bu münasibətlərin inkişafında əvəzsiz rol oynadığını diqqətə çatdırıb. Nazir Azərbaycanın uğurlu hərtərəfli inkişafını qürurla izlədiyini xüsusi vurğulayaraq, hər iki dövlət arasında həyata keçirilən mühüm iqtisadi layihələrdən söz açıb.

Millət vəkili Şamil Ayrım professor Turan Yazqanın elm və təhsil sahəsindəki xidmətlərindən bəhs edib. Mərhum Turan Yazqanın milli-mənəvi dəyərlərə bağlı gənclərin yetişməsində böyük xidmətlər göstərdiyini bildirən millət vəkili məhz belə gənclərin sayəsində Azərbaycanla bərabər, Türkiyənin də problemi sayılan Dağlıq Qarabağ münaqişəsinin həllinə nail olunacağına əminliyini bildirib.

İstanbul Universitetinin rektoru, professor Mahmud Ak isə mərhum professor Turan Yazqanın həyat və fəaliyyətindən bəhs edib. Çıxışında onun Türk dünyasında, o cümlədən Azərbaycanda təhsilin inkişafına böyük önəm verdiyinə diqqət çəkən rektor, bu siyasətin əsas məqsədinin türk dünyasını birləşdirmək olduğunu bildirib.

Konfransda Bakı Atatürk Liseyinin şagirdlərinin ifasında şeirlər səsləndirilib.

Beynəlxalq konfrans "UNEC və Türkiyə universitetlərində akademik fəaliyyətin keyfiyyətinin artırılması istiqamətində əməkdaşlıq istiqamətləri" mövzusunda panel müzakirələrlə davam edib.

# Diasporla İş üzrə Dövlət Komitəsinin nümayəndə heyəti Los-Ancelesdə bir sıra görüşlər keçirib



Diasporla İş üzrə Dövlət Komitəsinin nümayəndə heyəti ABŞ-da səfərdədir. Komitədən qəzetimizə verilən məlumata görə, əvvəlcə nümayəndə heyəti Azərbaycanın Los-Ancelesdəki baş konsulluğunda Ümummilli lider Heydər Əliyevin büstünü ziyarət edib, önünə gül dəstələri qoyub.

Daha sonra nümayəndə heyətinin Meksikanın Los-Ancelesdəki baş konsulu Carlos Eugenio Garcia de Alba Zepeda ilə görüşü olub. Görüşdə Azərbaycan dövlətinin diaspor siyasəti, Dövlət Komitəsinin fəaliyyəti, Azərbaycan Diasporuna Dəstək Fondu haqqında məlumat verilib. Eyni zamanda, ABŞ-dakı Meksika diasporunun tarixi, inkişaf prosesi, problemləri müzakirə olunub, bu ölkədəki Azərbaycan və Meksika diasporunun birgə fəaliyyəti ilə bağlı fikir mübadiləsi aparılıb.

Nümayəndə heyətinin növbəti görüşü San-Dieqo - Bakı Dostluq Assosiasiyasının icraçı direktoru Martin Kruminq ilə baş tutub. Görüşdə Kaliforniyanın ən böyük şəhərlərindən biri olan San-Dieqo ilə əməkdaşlığın zəruriliyi vurğulanıb. Tərəflər ABŞ-da Azərbaycan mədəniyyətinin tanıdılması və həqiqətlərinin təbliği istiqamətində daha çox işlərin görülməsi ilə bağlı razılığa gəliblər.

Los-Anceles səfəri çərçivəsində Koreya-Asiya icmasının 40 nəfər üzvü ilə keçirilən görüşdə Azərbaycanın tolerantlıq modeli haqqında qısametrajlı film nümayiş etdirilib. Daha sonra Azərbaycanın Asiya ölkələri, xüsusilə Koreya ilə əlaqələri, Azərbaycanın turizm potensialı və Azərbaycan diasporunun dünyadakı mövcud vəziyyəti barədə məlumat verilib. Azərbaycan haqqında sual-cavab formatında baş tutan görüşün sonunda hər iki icmanın nümayəndələri Kaliforniyada öz qüvvələrini birləşdirib daha sıx əməkdaşlıq etməyi qərara alıblar.

Bundan başqa, Şimali Amerika Yəhudi Federasiyalarının İdarə Heyətinin sabiq sədri Milken Ailə Fondunun vitse-prezidenti, Kaliforniya Berkli Universiteti Fondunun İdarə Heyətinin üzvü Riçard Sandler ilə də görüş olub. Görüşdə əsasən Azərbaycan və yəhudi icmaları, eləcə də Azərbaycan-İsrail arasındakı əlaqələr, Azərbaycan Diasporuna Dəstək Fondu ilə Milken Fondu arasında əməkdaşlığın perspektivləri müzakirə olunub.

Diasporla İş üzrə Dövlət Komitəsinin nümayəndə heyəti Azərbaycanın Los-Ancelesdəki baş konsulluğunun təşkilatçılığı və İran-Amerika Yəhudi Federasiyasının ev sahibliyi ilə keçirilən tədbirə qatılıb. Tədbirdə çıxış edən Dövlət Komitəsinin sədri Fuad Muradov Azərbaycan və yəhudi xalqlarının dostluğu, Azərbaycan-İsrail münasibətlərinin tarixi barədə danışıb, hər iki icmanın ABŞ-da əlaqələrinin möhkəmləndirilməsi və maraqları naminə birgə fəaliyyətinin vacibliyini vurğulayıb.

Qeyd edək ki, Azərbaycanın Los-Ancelesdəki baş konsulu Nəsimi Ağayev keçirilən görüşlərdə nümayəndə heyətini müşayiət edib.

**MÜŞFİQƏ**

# YAP Şamaxı rayon təşkilatının yaranmasının 26-cı ildönümü ilə əlaqədar tədbir keçirilib





Yeni Azərbaycan Partiyası (YAP) Şamaxı rayon təşkilatının yaranmasının 26-cı ildönümü ilə əlaqədar tədbir keçirilib. Tədbirdə çıxış edən YAP Şamaxı rayon təşkilatının sədri Bəxtiyar Abbasov qeyd edib ki, 1990-cı illərin əvvəlində Azərbaycanda siyasi böhran yaşanırdı. Həmin dövrdə ölkə ziyalılarının Ulu öndər Heydər Əliyevə müraciət etdiyini diqqətə çatdıran B.Abbasov xalqımızın Ümummilli liderinin rəhbərliyi ilə yeni bir siyasi partiyanın - Yeni Azərbaycan Partiyasının yarandığını deyib. Qeyd olunub ki, məhz Ulu öndər Heydər Əliyevin rəhbərliyi ilə yaranan Yeni Azərbaycan Partiyası ölkəmizdə milli birliyin yaranmasında böyük rola malik oldu.

B.Abbasov onu da qeyd edib ki, Ulu öndər Heydər Əliyevin yaratdığı və bu gün ölkə Prezidenti, YAP Sədri İlham Əliyevin rəhbərlik etdiyi partiyamız ölkəmizin və regionun ən güclü siyasi təşkilatıdır.

Tədbirdə səhiyyə işçiləri adından Nəzakət Abdulrazaqova, Qərib Qasımov, İslam Ağayev və Səməd Fətəliyev çıxış ediblər.

**PƏRVİZ**

# Dədə Şəmşir nurunun, ruhunun daşıyıcısı Qənbər Şəmşiroğlu - 85

Vətəni, xalqı üçün yaşayan, yaradan ağsaqqal ziyalılarımızdan biri də Dədə Şəmşir nurunun və ruhunun daşıyıcısı Qənbər Şəmşiroğludur.



Qənbər müəllim 1933-cü il noyabr ayının 16-da Kəlbəcər rayonunun Ağdaban kəndində dünyaya gəlib. O, Yanşaq kənd orta məktəbində təhsil aldıqdan sonra 1950-ci ildə bir il kəndli-gənclər kursunda işləyib, 1951-ci ildə isə ikiillik Ağdam Dövlət Müəllimlər İnstitutunun Azərbaycan dili və ədəbiyyatı fakültəsinə daxil olub. 1953-cü ildə həmin institutu bitirərək Kəlbəcər rayon Ağdaban kənd yeddiillik məktəbində müəllim, 1957-ci ildən isə həmin məktəbin direktoru işləyib. 1957-1958-ci illərdə Kəlbəcər rayon Partiya Komitəsində təbliğat-təşviqat şöbəsinin müdiri vəzifəsində çalışıb. 1958-ci ildə Bakı Ali Partiya Məktəbinə göndərilib. 1961-ci ildə qiyabi yolla N.Tusi adına institutu, 1964-cü ildə isə Sovet İttifaqı Kommunist Partiyası yanında Ali Partiya Məktəbini bitirib. 1960-1966-cı illərdə Ağdaban səkkizillik məktəbində direktor, 1966-1971-ci illərdə Kəlbəcər qəsəbə orta məktəbində direktor, 1971-1974-cü illərdə Kəlbəcər RPK-nın ikinci katibi, 1974-1988-ci illərdə Kəlbəcər RİK-in sədri, 1989-1991-ci illərdə Gədəbəy RİK-in sədri, 1991-1992-ci illərdə Gədəbəy rayon İcra Hakimiyyətinin başçısı, 1993-cü ildə Azərittifaqda baş müşavir, 1993-1994-cü illərdə Kəlbəcər rayon İcra Hakimiyyətinin başçısı işləyib. Uzun müddət dövlət fəaliyyətində səmərəli çalışdığına görə Qənbər müəllim "Şərəf nişanı" ordeni, "Əmək igidliyinə görə" və "Əmək veteranı" medalları ilə təltif edilmişdir.

Qənbər müəllimin sədirlik etdiyi "Aşıq Şəmşir" Mədəniyyət Ocağı İctimai Birliyi 29 yanvar 2010-cu ildə Azərbaycan Respublikasının Ədliyyə Nazirliyində qeydiyyata alınmışdır. Onun rəhbərlik etdiyi "Aşıq Şəmşir" Mədəniyyət Ocağı İctimai Birliyi yarandığı gündən mədəniyyətimizin, incəsənətimizin, milli-mənəvi dəyərlərimizin, aşıq sənətinin qorunub yaşadılması və digər sahələr üzrə ölkə daxilində və xaricdə müxtəlif tədbirlər həyata keçiribdir. "Aşıq Şəmşir" Mədəniyyət Ocağı İctimai Birliyi "Unudulmaqda olan xalq sənəti nümunələrinin təbliği", "Ustadnamələr - milli dəyərlərimizin əlifbasını birgə oxuyaq" və "Azərbaycan-Türkiyə milli birliyinin simvolu - ozan-aşıq sənəti" və sair onlarla layihələri həyata keçirmişdir. Layihələr çərçivəsində milli folklor oyunlarımız olan Kilimarası və Maraloyunu geniş ictimaiyyətə təbliğ edilmiş, bukletlər şəklində çap edilib vətəndaşlara paylanmış və bunun əsasında qısametrajlı filimlər hazırlanmışdır.

Qənbər müəllimin birbaşa rəhbərliyi ilə təşkilat Ulu öndərimiz Heydər Əliyevin irsinin öyrənilməsi və gənc nəslə aşılanması ilə bağlı mütəmadi olaraq silsilə təbirlər həyata keçirmişdir. Təşkilat həmçinin Qənbər Şəmşiroğlunun təşəbbüsü əsasında Azərbaycan şair və yazıçılarının, elm və ədəbiyyat xadimlərinin kitablarını nəşr etdirib ictimaiyyətə təqdim etmişdir. O, Azərbaycan Yazıçılar Birliyinin üzvü və Respublika Ağsaqqallar Şurası Rəyasət Heyətinin üzvü, onlarla kitabın müəllifidir: "Gədəbəy xatirələri", "Axtarıb Şəmşiri görmək istəsən", "Oğul gərək oğul olsun", "Bütövləşmək istədim", "Qənbər Şəmşiroğlu-75: Ömrün işıqlı anları", "Tale oxşarlığı", "Qənbər Şəmşiroğlu: Dostlar unutmaz məni", "Əmioğluların əməlləri", "Bir də görüşərik...", "Kəlbəcər: ömrüm, həyatım", "Sxojest sudeb" - "Oxşar talelər" (rus dilində), "Prodelki rodstvenniçkov" - "Qohumların əməlləri" (rus dilində), "Trisks of relatives" - "Qohumların əməlləri" (ingilis dilində), "Salehli səfərlər", "Hələ yerindədir, vurur ürəyim", "Caninin etirafı", "Bir də görüşərdik". Həmçinin Qənbər müəllimin iki kitabı İran İslam Respublikasında nəşr olunmuşdur. Qənbər müəllimin nəzm, nəsr əsərlərindən başqa, müxtəlif illərdə müxtəlif mətbuat orqanlarında bir-birindən maraqlı onlarla elmi-publisistik, ədəbi-bədii yazıları dərc olunub. Həmin mətbuat orqanlarına "Dünya" qəzetini, "Yeni bəşər" qəzetini, "Yenilik" qəzetini, "525-ci qəzet"i və başqa qəzet və jurnalları nümunə göstərmək olar.

*Ulu babam Miskin Abdal*
*Qurban böyük dərya-kamal*
*"Şəmşiroğlu" - deyib hər hal;*
*Ünvanımı gəzdirirəm!*

Ünvanımı gəzdirirəm - yazan Qənbər müəllim Dədə Şəmşir dünyasını dəyişəndən (1980) sonra ulu babası, XVI əsrin sufi şairi, övliya Miskin Abdal ocağının, o mənəvi ocağın davamı olan Dədə Şəmşir yurdunun varisi, Miskinli Ocağının ağsaqqalı oldu.

*Dastan məclisində, el məclisində*
*Söz sərrafı olan dədəmi gəzdim...*

Onun ulu babalarından süzülüb gələn yaradıcılıq bulağını öz ilhamı ilə qurumağa qoymamış, yaratdığı gözəl şeir nümunələri - qoşmalar, qəzəllər, gəraylılarla bu bulağın suyunu daha da gur etmişdir. Onun şeirlərində həyata, insana, təbiət gözəlliklərinə, ailə dəyərlərinə yüksək sevgi və ehtiramla yanaşı, dərin bir həsrət, doğma ocaq dərdi və Kəlbəcər nisgili vardır:

*Xalısı var, xalçası var, xalı var,*
*Bəzənibdi çəmən, çiçəyə dağlar.*
*Meh tərpədib, sığallayıb telini,*
*Oxşayır qənirsiz göyçəyə dağlar.*

Qənbər müəllim həm öz övladlarına, həm də cəmiyyətimizdə layiqli yerini tutmaq istəyən gənclərimizə böyük qayğı və diqqət göstərmiş, əsl ağsaqqal nəsihəti vermişdir. Hörmətli ziyalımız Qənbər müəllim Qənbər Şəmşiroğlu imzası ilə bu gün də yazıb-yaratmaqdadır. Qənbər müəllimin müəllifi olduğu bir çox şeirlər kitablarını nümunə göstərmək olar.

Yurd həsrətini daima qəlbində daşıyan, həyatın min bir çətinliyinə sinə gərən Qənbər Şəmşiroğlu öz yaradıcılığında təpədən-dırnağa vətənin haqq aşiqidir. Bir zaman zirvəsindən atla keçdiyi dağların indi yurdunun qabağına çəkilən divar olduğunu duyan qəlbində hər addımında o torpaqlara qovuşmaq ümidini itirməmişdir.

*Şahdağdan üz tutub*
*Murova baxdım,*
*Bu dağdan o dağa salamlarım var.*
*Kəpəzin o üzü gözəl diyarda,*
*Düşmən tapdağında*
*qalanlarım var.*

Qənbər müəllim ömrünün bu ahıl, müdrik çağında bizlər üçün böyük mənəvi sərvət yaratmışdır. Bizlərin əsas işi isə Qənbər müəllim kimi ağsaqqallarımızı, ziyalılarımızı dərindən öyrənmək və onun irsinə bir azərbaycanlı kimi sahib çıxmaqdır.

Qənbər müəllim bu gün öz kamillik yaşında da "Aşıq Şəmşir" Mədəniyyət Ocağı İctimai Birliyinin sədri kimi Kəlbəcər rayonunun və respublikanın ictimai-siyasi həyatında fəaliyyətini davam etdirir, respublikamızda həyata keçirilən kütləvi-mədəni və sosialyönümlü tədbirlərdə yaxından iştirak edir, qayğıya ehtiyacı olan insanlara maddi, mənəvi yardımçı olur.

Azərbaycanın sosial-iqtisadi inkişafındakı xidmətlərinə görə Qənbər müəllimin əməyi möhtərəm Prezidentimiz cənab İlham Əliyev tərəfindən yüksək dəyərləndirilib, o, 18 oktyabr 2011-ci ildə "Tərəqqi" medalı ilə təltif olunub.

Əzizimiz Qənbər müəllim, bu gün Sizin 85 yaşınız tamam olur. Sizi səmimi qəlbdən təbrik edir, Ulu Tanrıdan cansağlığı, uzun ömür, işlərinizdə uğurlar arzulayırıq. Arzu edirik ki, inşallah, gələn ad gününüzü doğma torpağımızda, dədə Şəmşir ocağında, Kəlbəcərimizdə keçirək.

**Rübabə ŞİRİNOVA**

**AMEA M.Füzuli adına Əlyazmalar İnstitutu, fəlsəfə üzrə fəlsəfə doktoru, dosent**

# Azərbaycan Prokurorluğunun nümayəndə heyəti antikorrupsiya strategiyalarına dair beynəlxalq konfransda iştirak edib

*Konfransda Azərbaycanın işğal olunmuş ərazilərində xarici şirkətlərin qanunsuz fəaliyyəti ilə bağlı ölkəmizin qətiyyətli mövqeyi diqqətə çatdırılıb*




Noyabrın 12-13-də Romada Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatının (ATƏT), İtaliyanın Xarici İşlər Nazirliyinin, Beynəlxalq Əlaqələr İnstitutunun və nüfuzlu LUISS Quido Karli Universitetinin birgə təşkil etdiyi "ATƏT bölgəsində rəqəmsal dövr üçün antikorrupsiya strategiyalarının hazırlanması üzrə ən yeni tendensiyalar və ən yaxşı təcrübələr" mövzusunda konfrans keçirilib.

Baş Prokurorluğun mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, tədbirdə ölkəmizi Azərbaycan Respublikası baş prokurorunun müavini, Baş Prokuror yanında Korrupsiyaya Qarşı Mübarizə Baş İdarəsinin rəisi Kamran Əliyevin rəhbərliyi ilə nümayəndə heyəti təmsil edib. Nümayəndə heyətinə Baş Prokuror yanında Korrupsiyaya Qarşı Mübarizə Baş İdarəsinin rəis müavini Əli Nağıyev və Baş İdarənin böyük prokuroru Elnur Musayev daxil olub.

Avropa qitəsində təhlükəsizliyin təmin edilməsi üçün ATƏT-in həyata keçirdiyi üç əsas fəaliyyət istiqamətlərindən biri olan korrupsiyaya qarşı mübarizənin aktual məsələlərinə həsr olunan konfransda İtaliyanın ədliyyə naziri Alfonso Bonafede, ATƏT-in baş katibi Tomas Qreminger, Parlament Assambleyasının sədri Georgi Sereteli, korrupsiya məsələləri üzrə xüsusi müşavir və eyni zamanda, LUISS Quido Karli Universitetinin prorektoru Paola Severino, Avropa Şurasının rəhbər heyəti, bir sıra ölkənin ədliyyə nazirləri, korrupsiyaya qarşı mübarizə qurumlarının rəhbərləri, "Beynəlxalq şəffaflıq" və digər vətəndaş cəmiyyəti institutlarının üzvləri, həmçinin tanınmış elm adamları iştirak ediblər.

Konfransın "Korrupsiyanın ölçülməsi və onun iqtisadiyyata və qanunçuluğun vəziyyətinə təsirinin qiymətləndirilməsi" mövzusundakı birinci sessiyasında çıxış edən baş prokurorun müavini Kamran Əliyev Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin həyata keçirdiyi inkişaf kursunun uğurlu iqtisadi və sosial nəticələri barədə ətraflı məlumat verib. Nümayəndə heyətinin rəhbəri ölkəmizdə korrupsiyaya qarşı mübarizənin dövlətin əsas fəaliyyət prinsipi olaraq qanunvericilik bazasının yaradılması, dövlət idarəetmə prosesində şəffaflığın təmin olunması, özəl sektorun və əlverişli biznes mühitinin formalaşdırılması, müstəqil və ədalətli məhkəmə sisteminin və korrupsiyaya qarşı mübarizə sahəsində ixtisaslaşmış qurumların təsirli şəkildə fəaliyyət göstərməsi üzərində qurulmasını bildirərək bu istiqamətdə davamlı şəkildə görülən işlərdən bəhs edib. Çıxışda həyata keçirilən kompleks islahatların müsbət nəticələrinin bir sıra beynəlxalq reytinqlərdə, o cümlədən Dünya Bankının açıqladığı nüfuzlu "Doing Business-2019" hesabatında da əks olunduğu qeyd edilib. Azərbaycanın bu reytinqdə ötən illə müqayisədə 190 ölkə arasında 32 pillə irəliləyərək 25-ci yerdə qərarlaşması xüsusi vurğulanıb. Dünyada Azərbaycan brendi kimi tanınan "ASAN xidmət"in nümunəvi fəaliyyətinin korrupsiyanın qarşısının alınmasında rolu da görüş iştirakçılarının nəzərinə çatdırılıb. Həmçinin korrupsiyanın səviyyəsinin ölçülməsi istiqamətində həyata keçirilən beynəlxalq təşəbbüslər təhlil olunaraq bu sahədə fəaliyyətin təkmilləşdirilməsi üçün konkret təkliflər səsləndirilib. K.Əliyev çıxışının sonunda Ermənistan nümayəndə heyətinin etirazlarına baxmayaraq, Azərbaycanın işğal olunmuş ərazilərində qanunsuz çalışan xarici şirkətlərin fəaliyyətinə toxunaraq, bu məsələdə ölkəmizin qətiyyətli mövqeyini diqqətə çatdırıb. Korrupsiyaya qarşı mübarizə və çirkli pulların yuyulmasının qarşısının alınması sahəsində beynəlxalq ictimaiyyətin səylərinə ciddi xələl gətirən və Azərbaycan qanunlarına məhəl qoymayan şirkətlərin fəaliyyətinin cinayət işləri çərçivəsində araşdırılması və onların barəsində müvafiq sərt ölçülərin görüləcəyi barədə xəbərdarlıq edilib.

Konfrans əsnasında nümayəndə heyəti İtaliyanın ədliyyə naziri Alfonso Bonafede, LUISS Universitetinin və Beynəlxalq Əlaqələr Universitetinin rəhbərliyi, həmçinin bir sıra ölkələrin yüksək səviyyəli nümayəndə heyətləri ilə ikitərəfli görüşlər keçirib. İtaliyanın xarici siyasətinin müəyyənləşdirilməsi məqsədilə tədqiqat aparan yüksək elm adamları ölkədə korrupsiyaya qarşı mübarizənin əlverişli investisiya mühitinin formalaşmasında müstəsna rol oynadığını vurğulayaraq, Azərbaycan hökumətinin bu sahədə gördüyü tədbirləri yüksək qiymətləndiriblər. Bu uğurlu addımların nəticəsi olaraq, ölkələrimiz arasında iqtisadi əlaqələrin ən yüksək səviyyədə olması vurğulanıb.

Tədbirdə, həmçinin korrupsiyaya qarşı mübarizədə ixtisaslaşmış qurum və strategiyaların modelləri və təcrübələri, həmçinin korrupsiya ilə mütəşəkkil cinayətkarlıq arasında əlaqələr mövzularına həsr edilmiş sessiyalar da keçirilib.

Sonda konfrans iştirakçıları ATƏT məkanında iqtisadi inkişafın təmin olunması və sosial rifahın artırılması naminə səylərin birləşdirilməsinin, qarşılıqlı əməkdaşlıq əsasında həyata keçirilən korrupsiyaya qarşı mübarizə təşkilatçılığının gücləndirilməsinin vacibliyini vurğulayıblar.

Səfər zamanı İtaliyanın Maliyyə Qvardiyasının Qərargahında ikitərəfli rəsmi görüş keçirilib.

Konfransda və ikitərəfli görüşlərdə Azərbaycanın İtaliyadakı səfiri Məmməd Əhmədzadə də iştirak edib.

# Hikmət Babaoğlu: Teoxarus Avropa Parlamenti qarşısında hesabat verməlidir

**"Avropa Parlamentinin (AP) üzvü Eleni Teoxarus hər şeydən öncə etdiyi hərəkətlərə görə Avropa Parlamenti qarşısında hesabat verməlidir və AP-nin daxili nizamnamə qaydalarına riayət etməlidir. Ancaq təəssüf ki, Kiprdən olan parlamentari daima separatizmi, ölkələrin ərazi bütövlüyünü təhdid edən məsələləri özü üçün bir siyasi məqsəd vasitəsi kimi müəyyənləşdirib".** Bunu SİA-ya açıqlamasında millət vəkili, "Yeni Azərbaycan" qəzetinin baş redaktoru Hikmət Babaoğlu deyib.



Deputatın sözlərinə görə, bu xanım parlamentari dəfələrlə qanunsuz olaraq Ermənistanın işğalı altında olan Dağlıq Qarabağa səfər etdiyinə görə əslində həm AP-nin daxili nizamnaməsini, həm də beynəlxalq hüququ pozub: **"Çünki o Avropa Şurasının üzvü olan bir ölkənin ərazisini qeyri-qanuni yollarla keçib. Məhz ona görə də Azərbaycan Xarici İşlər Nazirliyi onu arzuolunmaz şəxslər siyahısına daxil etmişdir. Ancaq görünür Eleni Teoxarus daima belə məsələlərdə önə çıxmaq istəyir və o, növbəti dəfə Albaniyanın cənub ərazilərinə iddia qaldırmaqla bu ölkənin ərazi bütövlüyünü təhdid edən bəyanatlar səsləndirmişdir. Haqlı olaraq Albaniya XİN tərəfindən də o arzuolunmaz şəxslər siyahısına daxil edilib.**

**Məsələ ondandır ki, hazırda Qərbdə separatçılığı təşviq edən və işğalçılıq siyasəti ilə məşğul olan Ermənistan və işğalçılıq siyasətini dəstəkləyən mərkəzlər tərəfindən Teoxarusun addımlarını təşviq edən maliyyə mənbəyi yaradılır və ölkələrə qarşı bu cür iddia ilə çıxış edən bir şəbəkə formalaşdırılır. Teoxarus da, əslində, bu şəbəkənin toruna düşüb. Ancaq o bilməlidir ki, Avropa Parlamentinin üzvü kimi həm beynəlxalq hüquq, həm ərazi bütövlüyünü şübhə altına aldığı dövlətlərin hüquq sistemi, həm də üzvü olduğu AP-nin qarşısında məsuliyyət daşıyır. Ona görə də düşünürəm ki, əgər AP doğurdan da özünü beynəlxalq təşkilat kimi nüfuzlu hesab edirsə, onun nüfuzuna xələl gətirən deputatlarını ilk növbədə özü cəzalandırmalıdır ki, sonradan digər vasitələrlə onların cəzalandırılmasına nail olmaq üçün müvafiq beynəlxalq hüquqi prosedur başlanılmasın. Mən düşünürəm ki, bu AP-nin imic məsələsidir. Əgər belə olacaqsa, AP-yə, Avropa İttifaqına və yaxud da Avropa Şurasına üzv olan digər ölkələrin ərazi bütövlüyü ilə də bağlı bu cür təhdidlər, addımlar atıla bilər. Nəticədə, həm beynəlxalq hüquq pozulmuş olar, həm də AP-nin beynəlxalq nüfuzuna ciddi zərbə dəymiş olar".**

# Cəbrayıl məktəblisi: Arzum budur ki, tezliklə doğma Qarabağımıza ekskursiyaya gedək



Bu layihədə iştirak etdiyimə görə çox sevinirəm. Tur-aksiyanın məqsədi, adından da göründüyü kimi, ölkəmizi yaxından tanımaq, onun tarixini, mədəniyyətini, mədəni irsini daha dərindən öyrənməkdir. Prezidentimizin təşəbbüsü ilə reallaşan bu layihə biz məktəblilərə Azərbaycanın bölgələri ilə yaxından tanış olmaq fürsəti yaradıb.

Bu sözləri "Ölkəmizi tanıyaq" devizi ilə keçirilən tur-aksiyanın iştirakçısı, Cəbrayıl məktəblisi Xəlil Şahverdiyev Şəkidə AZƏRTAC-ın bölgə müxbirinə müsahibəsində deyib.

Tur-aksiyanın məktəblilərin dünyagörüşlərinin zənginləşməsinə müsbət təsir göstərdiyini vurğulayan Cəbrayıl məktəblisi onlara belə layihə hədiyyə etdiyinə görə məktəblilər adından dövlətimizin başçısına minnətdarlığını bildirib. Xəlil Şahverdiyev deyib: **"Arzum budur ki, işğal altında olan torpaqlarımız tezliklə mənfur düşməndən azad edilsin və biz doğma Qarabağımızın dilbər guşələrinə ekskursiyalara gedək".**

# Tərtər məktəblisi: Hər bir rayonun özünəməxsus zəngin tarixi, mədəniyyəti, ənənələri var




Mən bu tur-aksiyanı səbirsizliklə gözləyirdim. Dörd gün ərzində Azərbaycanın şimal rayonlarının görməli yerlərinə, muzeylərinə, tarixi abidələrinə ekskursiya edəcəyik. Əminəm ki, Prezident İlham Əliyevin tapşırığına əsasən "Ölkəmizi tanıyaq" devizi ilə təşkil olunan bu maarifləndirici tur-aksiya bizim yaddaşımızda silinməz izlər buraxacaq. Bu, mənim üçün ən maraqlı səyahətlərdən biridir.

Bu sözləri AZƏRTAC-ın bölgə müxbirinə müsahibəsində "Ölkəmizi tanıyaq" devizi ilə keçirilən maarifləndirici tur-aksiyanın iştirakçısı, Tərtər rayonu İsmayıl Məmmədov adına 2 saylı məktəb-liseyin XI sinif şagirdi Anar Məmmədov söyləyib.

Quba-Qusar-Xaçmaz marşrutu üzrə ekskursiyanın iştirakçısı bildirib ki, kollektiv şəkildə tur-aksiyada iştirak etmək daha maraqlıdır. **"İndi mənim tək Tərtərdən deyil, Goranboy, Naftalan, Beyləqan, Ağcabədi və başqa rayonlardan məktəbli dostlarım var. Biz ekskursiya zamanı çəkdiyimiz maraqlı şəkilləri sosial şəbəkələrdə paylaşırıq. Şagirdlərin hamısı istəyir ki, bu aksiyada iştirak etsin. Ekskursiya zamanı şahid olduq ki, hər bir rayonun özünəməxsus zəngin tarixi, mədəniyyəti, ənənələri var",** - deyə tərtərli məktəbli qeyd edib.

# Beş rayonun məktəbliləri Zaqataladan zəngin təəssüratlarla ayrılıblar



"Ölkəmizi tanıyaq" maarifləndirici tur-aksiyası çərçivəsində Qəbələ-Şəki-Zaqatala marşrutu üzrə ekskursiyaya çıxan Cəbrayıl, Cəlilabad, Qubadlı (Sumqayıt), Saatlı və Sabirabad rayonlarının məktəbliləri noyabrın 15-də, günün ikinci yarısında Zaqatala rayonuna gəliblər.

AZƏRTAC-ın bölgə müxbiri xəbər verir ki, tur-aksiya iştirakçıları Zaqatala şəhərindəki Heydər Əliyev Mərkəzinin qarşısında rayonun rəhbər işçiləri tərəfindən qonaqpərvərliklə qarşılanıblar.

Rayon icra hakimiyyəti başçısının müavini Vəfa Süleymanova məktəblilərə Zaqatalanın tarixi, mədəniyyəti, coğrafi mövqeyi, iqtisadiyyatı, turizm potensialı barədə məlumat verib. Bildirilib ki, Böyük Qafqaz sıra dağlarının cənub yamaclarında yerləşən, 128 min nəfərə yaxın əhalisi olan Zaqatala rayonunda 20-dən çox xalqın nümayəndəsi uzun illərdir dostluq və qardaşlıq şəraitində yaşayır.

Diqqətə çatdırılıb ki, Zaqatala rayonunun iqtisadiyyatında tütünçülük, meyvəçilik, o cümlədən fındıqçılıq, baramaçılıq, gülçülük mühüm yer tutur. Rayonda illik istehsal gücü 3500 ton olan tütün emalı zavodu, həmçinin tütün istehsalı və emalı məntəqəsi fəaliyyət göstərir. "AzRose" MMC-nin qızılgül yağı istehsalı müəssisəsində cari mövsümdən etibarən məhsul istehsalına başlanılıb.

Sonra məktəblilər Heydər Əliyev Mərkəzi ilə tanış olublar. Məlumat verilib ki, Mərkəzdə müxtəlif təyinatlı bölmələr fəaliyyət göstərir. Binanın birinci mərtəbəsindəki ekspozisiya zalında Ulu öndərin zəngin həyat yolu və çoxşaxəli fəaliyyətinin bütün dövrləri barədə ətraflı məlumat almaq mümkündür. Binada, həmçinin akt və konfrans zalları, elektron kitabxana, kinozal, müxtəlif dərnək otaqları, fotostudiya və poliqrafiya emalatxanası yerləşir. Mərkəzdə fəaliyyət göstərən rəqs, rəsm, gitara, gənc fotoqraf, dekorativ tikmə, xalçaçılıq və toxuculuq dərnəklərində hər gün xeyli sayda yeniyetmə və gənc məşğul olur.

Tur-aksiya iştirakçılarının Zaqatala Tarix-Mədəniyyət Qoruğuna ekskursiyaları da maraqlı keçib. Məlumat verilib ki, qoruq 1804-1830-cu illərdə inşa edilən Zaqatala qalasında yerləşir. Çar hakimiyyəti tərəfindən Zaqatalaya sürgün edilmiş "Potyomkin" zirehli gəmisinin inqilabçı matrosları vaxtilə bu qalada məhbus kimi saxlanılıblar. Həmin matrosların inqilabi fəaliyyəti barədə yazıçı Qılman İlkin "Qalada üsyan" romanını yazıb və bu əsər əsasında "Yenilməz batalyon" bədii filmi çəkilib. Müstəqillik illərində ekranlaşdırılan "Cavad xan" filminin bəzi səhnələri də Zaqatala qalasında və onun ətrafında lentə alınıb.

Məktəblilər qoruğun ərazisini gəzib, rəqs edib, əyləniblər.

Tur-aksiya iştirakçıları "Qızılgüllər diyarı" Zaqataladan zəngin təəssüratlarla ayrılıblar.

# Akademik Zərifə Əliyeva adına Milli Oftalmologiya Mərkəzinin Səyyar Klinikası Ədliyyə Nazirliyində aksiya keçirib



Azərbaycan ədliyyəsinin 100 illik yubileyi münasibətilə keçirilən tədbirlər çərçivəsində noyabrın 15-də Akademik Zərifə Əliyeva adına Milli Oftalmologiya Mərkəzinin Səyyar Klinikası Ədliyyə Nazirliyində aksiya təşkil edib.

AZƏRTAC xəbər verir ki, aksiya zamanı Səyyar Klinikanın həkimləri tərəfindən nazirliyin əməkdaşlarına tibbi-oftalmoloji xidmət göstərilib. Aksiya çərçivəsində nazirliyin 130 əməkdaşı göz müayinəsindən keçib.

Tədbirin məqsədi pasiyentlərin səhhətləri ilə bağlı problemlərin həll olunmasına kömək göstərməkdir. Aksiya çərçivəsində aşkarlanan göz xəstəlikləri ilə bağlı monitorinqlər aparılacaq, aşkarlanan problemin həlli yolları müzakirə olunacaq.

Akademik Zərifə Əliyeva adına Milli Oftalmologiya Mərkəzinin həyata keçirdiyi tədbirlər gündən-günə artır və bu, dövlətimizin başçısının səhiyyə ilə bağlı reallaşdırdığı layihələrin əsas tərkib hissələrindən biri hesab olunur.

Qeyd edək ki, 2005-ci ildən mərkəzin avtomobil Səyyar Klinikası mütəmadi olaraq paytaxtda və respublikanın müxtəlif regionlarında pasiyentlərə xidmət göstərir. 2012-ci ildən etibarən isə klinika tərəfindən Azərbaycanın bir çox ali və orta təhsil ocaqlarında mütəmadi olaraq oftalmoloji müayinələr aparılır. Bununla yanaşı, 2018-ci ildən Akademik Zərifə Əliyeva adına Milli Oftalmologiya Mərkəzinin Səyyar Qatarı fəaliyyətə başlayıb.

# Bakıda "Vəkillərin rolu və müstəqilliyi: müqayisəli perspektivlər" mövzusunda beynəlxalq konfrans işə başlayıb





Noyabrın 15-də Bakıda Avropa Şurasının, Hüquqşünasların Beynəlxalq Komissiyasının və Azərbaycan Respublikasının Vəkillər Kollegiyasının birgə təşkilatçılığı ilə "Vəkillərin rolu və müstəqilliyi: müqayisəli perspektivlər" mövzusunda beynəlxalq konfrans işə başlayıb.

AZƏRTAC xəbər verir ki, tədbirdə 16 xarici ölkənin, o cümlədən Belarus, Gürcüstan, Rusiya, Türkiyə, Niderland, Böyük Britaniya, Fransa, İsveçrə, Qazaxıstan, Ukrayna, Özbəkistan Vəkillər kollegiyalarının rəhbərləri və üzvləri, Avropa Şurasının, Avropa İttifaqının, Hüquqşünasların Beynəlxalq Komissiyasının, Birləşmiş Millətlər Təşkilatının, Avropa Vəkillər İttifaqının, Hüquq cəmiyyətləri və digər beynəlxalq təşkilatların nümayəndələri, habelə Milli Məclisin deputatları, Ali Məhkəmənin, Konstitusiya Məhkəməsinin və digər məhkəmələrin hakimləri, dövlət orqanları və qeyri-hökumət təşkilatlarının, Vəkillər Kollegiyasının təmsilçiləri yerli və beynəlxalq ekspertlər iştirak edirlər.

İki gün davam edəcək və 4 sessiyada keçiriləcək konfransda müvəkkillərin insan hüquqlarının müdafiəsini həyata keçirərkən vəkillərin əməl etməli olduqları tələb və şərtlərin müqayisəli təhlili aparılır.

Konfransın açılış mərasimində çıxış edən Azərbaycan Respublikası ədliyyə nazirinin müavini, Məhkəmə-Hüquq Şurasının üzvü Azər Cəfərov bildirib ki, vəkillik institutunun rolunun və müstəqilliyinin artırılmasına dair nəzərdə tutulan müzakirələr və təcrübə mübadiləsi bu təsisatın perspektivləri barədə yeni ideyaların formalaşmasına töhfə verəcək. Vəkillik institutu hər bir demokratik cəmiyyətin, hüquqi dövlətin mühüm elementlərindən biridir. Hakimlər və prokurorlarla yanaşı, vəkillər də qanunun aliliyi və insan hüquqlarının təmin edilməsində çox vacib missiya həyata keçirirlər. Onların müstəqil və azad şəkildə fəaliyyət göstərə bilməsi insan haqlarının və ədalətli məhkəmə hüququnun təmin olunması ilə bağlıdır. Təsadüfi deyil ki, BMT və Avropa Şurası tərəfindən vəkilliklə bağlı Əsas prinsiplər (Vəkillərin rolu haqqında), Tövsiyələr (Vəkillik peşəsinin azad icra edilməsi üzrə) kimi mühüm sənədlər qəbul olunub.

Konfransın işinə uğurlar arzulayan nazir müavini qeyd edib ki, Azərbaycanda vəkilliyin təşəkkülü Ulu öndər Heydər Əliyevin adı ilə bağlıdır. Məhz Ümummilli liderin bilavasitə rəhbərliyi ilə hazırlanmış və 1995-ci ildə referendumla qəbul edilmiş Konstitusiyada hüquqi yardımla bağlı müddəalar yer alıb. Ölkəmizdə 1999-cu ildə mütərəqqi beynəlxalq təcrübə nəzərə alınmaqla "Vəkillər və vəkillik fəaliyyəti haqqında" Qanun qəbul olunub. Prosessual qanunvericilikdə onun statusu gücləndirildi və bununla da ölkəmizin tarixində ilk dəfə olaraq vəkillik tam müstəqil və hakimiyyətin heç bir qolundan asılı olmayan təsisata çevrildi. Hazırda vəkillik fəaliyyəti dövlətimizin diqqət mərkəzindədir. Bu sahəni tənzimləyən qanunvericilik təkmilləşdirilir, dövlətimizin başçısının sərəncamlarına, habelə insan hüquqlarının müdafiəsi, şəffaflığın artırılması məsələləri ilə bağlı və digər sahələr üzrə müxtəlif Dövlət və Milli Fəaliyyət proqramlarına uyğun olaraq, vəkillik institutunun gücləndirilməsi, onun müstəqilliyinin təmin edilməsi və fəaliyyətinin səmərəliliyinin artırılması, Vəkillər Kollegiyasının maddi-texniki təminatının yaxşılaşdırılması, vəkillərin peşəkarlığının və göstərdikləri hüquqi yardımın səviyyəsinin yüksəldilməsi üçün tədbirlər görülür. Vəkillər məhkəmələrin özünüidarə orqanı olan Məhkəmə-Hüquq Şurasında və Hakimlərin Seçki Komitəsində bu məhkəmə təsisatlarının yaradıldığı andan təmsil olunurlar.

A.Cəfərov diqqətə çatdırıb ki, bu il fevralın 22-də ölkəmizdə vəkilliyin inkişafı ilə bağlı dövlətimizin başçısının imzaladığı Sərəncama əsasən, Vəkillər Kollegiyasının maddi-texnik təminatı daha da yaxşılaşdırılıb, hüquqi yardım haqqı artırılıb, digər tədbirlər həyata keçirilib.

Bu yaxınlarda yaradılmasının 100 illiyini qeyd edəcək Ədliyyə Nazirliyi bu gün sovet dövründən fərqli olaraq Vəkillər Kollegiyası ilə bərabər tərəfdaş kimi uğurla əməkdaşlıq edir. Bu əməkdaşlıqda əsas yük Ədliyyə Akademiyasının üzərinə düşür. Əvvəllər vəkillərin tədrisi ilə məşğul olan qurum ümumiyyətlə mövcud olmadığı halda, hazırda Akademiyada vəkilliyə namizədlərin peşəyə buraxılması məqsədilə onların ilkin, fəaliyyət göstərən vəkillərin isə davamlı tədrisi, ixtisaslarının artırılması həyata keçirilir. Bu zaman insan haqlarının müdafiəsi məsələlərinə, xüsusilə də İnsan Hüquqları üzrə Avropa Məhkəməsinin presedentlərinə xüsusi diqqət yetirilir. Son bir il yarım ərzində Akademiya ilə birgə layihələr çərçivəsində keçirilən 22 təlimə 400-dən çox vəkil cəlb edilib.

Azərbaycan Respublikası Vəkillər Kollegiyasının sədri Anar Bağırov tədbir iştirakçılarını salamlayaraq, konfransın məqsədi və proqramı barədə məlumat verib. O, son dövrdə Azərbaycanda vəkillik peşəsinin inkişafı istiqamətində aparılan tədbirlərdən, bununla bağlı Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 22 fevral tarixli Sərəncamının əhəmiyyətindən danışıb. Ölkəmizdə bu sahədə mövcud çatışmazlıqlar və onların aradan qaldırılması üçün görülən işlər barədə məlumat verən Kollegiya sədri konfransın müxtəlif ölkələrlə təcrübə mübadiləsi və gələcək əməkdaşlıq üçün mühüm rol oynadığını bildirib.

A.Bağırov qeyd edib ki, əhəmiyyəti baxımından belə böyük tədbir Azərbaycan Respublikasının Vəkillər Kollegiyasının tarixində ilk dəfədir keçirilir. İki gün davam edəcək konfransın bütün sessiyaları vəkillərin, ümumilikdə vəkilliyin müstəqilliyini şərtləndirən mövzulara həsr olunub.

Kollegiyanın sədri deyib ki, Azərbaycan Prezidentinin "Azərbaycan Respublikasında vəkilliyin inkişafı ilə bağlı əlavə tədbirlər haqqında" 2018-ci il 22 fevral tarixli Sərəncamı vəkillik institutunun inkişafında dövlətin nə dərəcədə maraqlı olduğunu sübut edir və həm vəkilliyin, həm də keyfiyyətli hüquqi yardımın əlçatan olması baxımından əvəzsiz sənəddir. Bu gün Vəkillər Kollegiyası həm vəkillər, həm də onlarla Kollegiya və üçüncü tərəf arasında yaranan münasibətlərin daha peşəkar və korporativ olmasına çalışır. Bu korporativ münasibətləri təmin etmək üçün Kollegiyanın Rəyasət Heyəti son bir ilə yaxın müddətdə neçə-neçə sənədlər qəbul edib, vəkillərin sayının artırılması, onların peşə bacarıqlarının daha da təkmilləşdirilməsi üzrə ciddi işlər görür.

Avropa Şurasının insan hüquqları üzrə direktoru Kristof Poirel, Hüquqşünasların Beynəlxalq Komissiyasının baş katibi Saman Zarifi, Avropa İttifaqının Azərbaycan nümayəndəliyinin rəhbəri Kestutis Yankauskas çıxışlarında konfransın Bakıda keçirilməsini yüksək qiymətləndirib, təşkilatçılığa görə Azərbaycan tərəfinə təşəkkürlərini bildiriblər.

Diqqətə çatdırılıb ki, mühüm mövzuya həsr edilən konfrans yerli və əcnəbi vəkillər üçün çox əhəmiyyətlidir. Konfrans vəkilləri, hüquqşünasları maraqlandıran məsələlərin müzakirəsi, bu sahədə təcrübə mübadiləsinin aparılması üçün yaxşı imkandır.

Açılış çıxışlarından sonra konfrans işini sessiyalarla davam etdirib.

Hüquqşünasların Beynəlxalq Komissiyasının baş katibi Saman Zarifinin moderatorluq etdiyi "Vəkillərin statusunun və rolunun dəstəklənməsi: Vəkil peşəsinin təşkili yolları" mövzusunda birinci sessiyada Vəkillər Kollegiyasının sədri Anar Bağırovun "Vəkillik peşəsinin təşkili vasitəsilə müstəqilliyin təmin edilməsi" mövzusunda məruzəsi dinlənilib. A.Bağırov məruzəsində son dövrlər ölkəmizdə vəkilliyin inkişafı sahəsində görülən işlər barədə tədbir iştirakçılarına ətraflı məlumat verib.

Sessiyada Hüquqşünasların Beynəlxalq Komissiyasının Avropa regional proqramının direktoru xanım Rouşin Pilley "Vəkillərin müstəqilliyinə dair beynəlxalq standartlar: institusional aspektlər", Avropa Vəkillər İttifaqı və Hüquq Cəmiyyətlərinin vitse-prezidenti Ranko Poliçariç "Vəkil peşəsinin təşkili yolu ilə müstəqilliyin təmin edilməsi-beynəlxalq standartlar" mövzularında çıxışlar ediblər.

Avropa Şurasının departament rəhbəri Mixail Lobovun moderatorluğu ilə keçirilən "Vəkil etikası: Vəzifələr, azadlıqlar və məhdudiyyətlər" mövzusundakı ikinci sessiyada "Vəkillərin peşə davranışı: hüquqlar və vəzifələr", "Vəkillərin etik qaydalarına dair beynəlxalq standartlar", "Müqayisəli perspektivlər: Vəkillərin peşə və etik vəzifələrinin həyata keçirilməsi üçün lazımı mühitin yaradılması üçün çağırışlar-beynəlxalq standartlar" mövzularında məruzələr dinlənilib.

Sessiyalarda Türkiyə Vəkillər Kollegiyaları İttifaqının sədri Mətin Feyzioğlu, Belarus Vəkillər Kollegiyasının sədri Viktor Çayçits, Gürcüstan Vəkillər Kollegiyasının sədri David Asatiani, Rusiya Vəkillərinin Federal Palatasının sədri Yuri Pilipenko, Hollandiya Vəkillər Kollegiyasının sabiq prezidenti, kollegiyanın etika komissiyasının sədri Yerun Brouyer çıxış edərək ölkələrinin bu sahədəki təcrübələrini bölüşüblər.

Konfrans işini noyabrın 16-da davam etdirəcək.

# Heydər Əliyev Mərkəzində hiperrealistik əsərlərin sərgisi açılacaq




Noyabrın 29-da Heydər Əliyev Mərkəzində "Hiperrealistik heykəltəraşlıq. Canlıdan seçilmir" (Hyperrealistic Sculpture. Almost Alive) adlı sərgi açılacaq. Ekspozisiyada Amerika Birləşmiş Ştatları, Avstraliya, Kanada, Makedoniya, Fransa və digər ölkələrdən olan sənətkarların canlı təəssürat yaradan 20 əsəri nümayiş etdiriləcək.

AZƏRTAC xəbər verir ki, Heydər Əliyev Mərkəzində açılacaq sərgi beş bölmədən ibarətdir. Burada insanı dəqiq təsvir edən obrazlar, monoxrom heykəllər, bədənin müxtəlif hissələrini əks etdirən əsərlər, qeyri-adi ölçülü və deformasiya olunmuş reallığı canlandıran heykəllər təqdim ediləcək.

Sərgidə Dueyn Henson, Daniel Firman, Kerol A.Feyerman, Ceymi Selmon, Corc Siqal, Kit Edmierin, Sem Cinks, Mark Siyan, Jarko Başeski, Patrisia Piççinini, Toni Matelli, Mel Ramos, Matild ter Heyn, Tom Kübler, Robert Qrem və Allen Consun əsərləri nümayiş olunacaq.

1960-cı illərdə yaranan hiperrealistik heykəltəraşlıq 1970-ci illərdə inkişaf etməyə başlayıb. Bu sahənin ilklərindən olan Corc Siqal və Dueyn Henson maksimal dərəcədə real, canlı prototipindən fərqlənməyən əsərlər yaradıb.

Ümumiyyətlə isə hiperrealistik heykəltəraşlıq nümunələrini çox asanlıqla canlı adamlarla, real əşyalarla səhv salmaq olar. Müəlliflər insan bədənini - dəri qırışları, saç düzümü və digər xırdalıqları ustalıqla yaradırlar.

"Hiperrealistik heykəltəraşlıq. Canlıdan seçilmir" sərgisi indiyədək İspaniya, Meksika, Danimarka, Avstraliya, Niderland və Almaniyada nümayiş etdirilib.

Sərgi Heydər Əliyev Mərkəzində 2019-cu il martın 10-dək davam edəcək.

# XİN: Bako Saakyanın Fransaya səfəri oyuncaq qurumun beynəlxalq səviyyədə təşviqinə yönələn növbəti uğursuz cəhddir

Özünü Azərbaycanın işğal edilmiş ərazilərində yaradılmış qondarma rejimin rəhbəri kimi təqdim edən Bako Saakyanın Fransaya səfəri oyuncaq qurumun beynəlxalq səviyyədə təşviq edilməsinə yönələn növbəti uğursuz cəhddir. Bu səfərin həyata keçirilməsi üçün imkan yaradan və qanunsuz rejimin nümayəndələrini qəbul edən Fransa bu addımı ilə nəinki Azərbaycan və Fransa arasında mövcud olan ikitərəfli əməkdaşlıq münasibətlərinin ruhuna və imzalanmış sazişlərin dilinə uyğun davranmır, eyni zamanda, beynəlxalq hüququn norma və prinsiplərinin aliliyinə və öz üzərinə götürdüyü beynəlxalq öhdəliklərə hörmətsizlik nümayiş etdirir.

AZƏRTAC xəbər verir ki, bu fikirlər Azərbaycan Xarici İşlər Nazirliyinin mətbuat xidmətinin açıqlamasında yer alıb.

Açıqlamada deyilir: **"Fransanın Azərbaycanın işğal edilmiş torpaqlarında yaradılmış qondarma rejimin təbliğinə şərait yaratması bu ölkənin BMT Təhlükəsizlik Şurasının daimi üzvü və Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həlli üzrə danışıqlar prosesində vasitəçilik edən ATƏT-in Minsk qrupunun həmsədr ölkələrindən biri qismində obyektivliyini və qərəzsizliyini ciddi sual altına alır.**

**Fransanın Azərbaycanın ərazilərinin işğalı və yüz minlərlə azərbaycanlının qanlı etnik təmizləməyə məruz qalmasında bilavasitə əli olan insanların təntənəli şəkildə qəbul edilməsinə icazə verməsi bu ölkənin Azərbaycan ictimaiyyətində nüfuzuna ciddi zərbə vurur. Azərbaycan qeyd olunan məsələ ilə bağlı Fransa tərəfinə diplomatik kanallarla qəti etirazını bildirəcək.**

**Fransa tərəfindən davamlı əsasda yürüdülən və ikili standartlara əsaslanan bu yanaşma Azərbaycanı Fransa ilə əlaqələri nəzərdən keçirməyə vadar edir".**

# Fransa ATƏT-in Minsk Qrupunun həmsədrliyindən uzaqlaşdırılmalıdır

## *Separatçı Bako Saakyana qucaq açan Fransanın bu mövqeyi onun ATƏT-in Minsk Qrupunun həmsədr dövləti statusuna qətiyyən uyğun gəlmir*



Xəbər verildiyi kimi, özünü Azərbaycanın işğal olunmuş ərazilərində yaradılmış qondarma rejimin rəhbəri qismində təqdim edən Bako Saakyan bu günlərdə növbəti dəfə Fransaya səfər edib. Separatçı Bako Saakyanın Fransaya səfərinə bu ölkədə "yaşıl işıq" yandırılması və ayrı-ayrı qurumlarda onunla "danışıqlar" aparılması heç bir sağlam məntiqə sığmır və ciddi suallar doğurur.

### FRANSA ƏNƏNƏVİ OLARAQ APARDIĞI ERMƏNİPƏRƏST SİYASƏTİNİ DAVAM ETDİRİR

Görünən odur ki, Fransa ənənəvi olaraq apardığı ermənipərəst siyasətinə bu gün də sadiqlik nümayiş etdirir. Bunu təsdiqləyən çoxsaylı faktlar sadalamaq mümkündür. Bu ölkənin Prezidenti Emmanuel Makron Frankofoniya sammitində iştirak üçün oktyabr ayında Ermənistana üç günlük səfər etsə də, tarazlığı qorumaq üçün Azərbaycana səfərə gəlmədi. Halbuki ATƏT-in Minsk Qrupunun digər həmsədr dövləti olan Rusiyanın rəhbərliyi regiondakı həssaslığı nəzərə alaraq tarazlı münasibəti təmin edir. Bu günlərdə regiona səfər edən ABŞ Prezidentinin milli təhlükəsizlik məsələləri üzrə müşaviri Con Bolton da tarazlı münasibət ortaya qoydu və münaqişənin həlli ilə əlaqədar obyektiv və ədalətli açıqlamalarla çıxış etdi.

Çox qəribədir ki, Fransanın ayrı-ayrı şəhərlərinin merləri Azərbaycanın işğal olunmuş ərazilərinə qanunsuz səfərlər edərək işğal altında olan şəhərlərimizlə Fransanın şəhərləri arasında "qardaşlaşma" sazişləri imzalayırlar. Fransa hökuməti tərəfindən isə bunun qarşısının alınması üçün heç bir tədbir görülmür. Xatırladaq ki, indiyədək 10-dan artıq Fransa şəhərinin rəhbərləri bu kimi qanunsuz və ilk növbədə öz ölkələrinin qanunlarını pozan "sənəd"ə imza atmışlar. Eyni zamanda, özünü qondarma rejimin rəhbəri kimi təqdim edən Bako Saakyan davamlı olaraq Fransaya səfər edir. Fransa hökuməti tərəfindən isə bu kimi qanunsuz səfərlərə tam loyal münasibət sərgilənir.

Fransanın əlaqədar qurumlarının davranışlarını ədalət prizmasından dəyərləndirmək əsla mümkün deyil. Bir baxın, Azərbaycan vətəndaşları Fransa səfirliyində viza almaq üçün süründürməçilik və bürokratik problemlərlə üzləşdiyi halda, Bako Saakyan və qondarma rejimin digər təmsilçiləri saxta pasport məlumatları ilə Fransa ərazisinə asanlıqla daxil olurlar. Qanuni əsaslarla Fransaya səfər edən Azərbaycan vətəndaşları bu ölkənin sərhəd-keçid məntəqələrində əsassız sorğu-suallarla qarşılaşırlar. Burada qərəz və ayrı-seçkilik açıq-aydın görünür. Yeri gəlmişkən, Fransa XİN-in və bu ölkənin Azərbaycandakı səfirinin "Fransa "Dağlıq Qarabağ Respublikası"nı tanımır" məzmunlu bəyanatları tamamilə qəbuledilməzdir. Bu, əslində, məsuliyyətdən qaçmaqdan başqa bir şey deyildir. Fransa açıq və birmənalı şəkildə Azərbaycanın beynəlxalq səviyyədə tanınmış sərhədləri daxilində ərazi bütövlüyünü, suverenliyini və münaqişənin də bu prinsiplər əsasında həllini dəstəkləməlidir.

### RƏSMİ PARİS SEPARATİZMƏ MÜNASİBƏTDƏ İKİLİ STANDARTLARA ƏSASLANAN SİYASƏT HƏYATA KEÇİRİR

Beləliklə, hər şey gün kimi aydındır. Özünü dünyaya demokratiya carçısı kimi təqdim etmək üçün az qala dəridən-qabıqdan çıxan Fransa separatizmə münasibətdə açıq-aşkar ikili standartlara əsaslanan siyasət yürüdür. Başqa cür necə qiymətləndirəsən? Məlumdur ki, Cənubi Osetiya, Abxaziya, Dnestryanı və Krımdan olan şəxslərin Fransanın ərazisinə daxil olmasına icazə verilmir, ermənilərin Azərbaycana məxsus olan Dağlıq Qarabağda yaratdıqları qondarma rejimin nümayəndələri isə bu ölkəni az qala su yoluna döndəriblər. Belə olan halda Fransa özünə hansı bəhanələrlə haqq qazandıra bilər? Hələ bu da hamısı deyil. Heç kimə sirr deyil ki, Fransa Avropa İttifaqı daxilində aparılan müzakirələrdə Aİ-nin Azərbaycan ilə əlaqələrinin inkişafına daim maneələr yaradır. Başqa faktlara da nəzər salaq. Yeni Kaledoniyada keçirilmiş referendumdan sonra Fransa Prezidenti çıxış edərək müstəmləkə ərazisi olan Kaledoniyanın Fransanın tərkibində qalmasına görə fəxr etdiyini bildirdiyi, Fransa hökuməti Korsikada separatizmə qarşı sərt və kəskin siyasət apardığı halda, Azərbaycanın ərazi bütövlüyünün pozulmasına xidmət edən hallara göz yumur. Bir sözlə, Fransanın eyni mahiyyət daşıyan münaqişələrə ikili standartlardan yanaşması açıq-aydın görünür.

### FRANSA ATƏT-İN MİNSK QRUPUNUN HƏMSƏDR DÖVLƏTİ OLARAQ ÜZƏRİNƏ GÖTÜRDÜYÜ ÖHDƏLİKLƏRƏ ƏMƏL ETMİR

Fransa Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə tənzimlənməsi məqsədilə yaradılan ATƏT-in Minsk Qrupunun üç həmsədr dövlətindən biridir. Bu ölkənin missiyası əslində münaqişənin həlli ilə bağlı aparılan danışıqlara, sülhyaratma prosesinə dəstək, töhfə verməkdir. Lakin biz daim Fransanın fərqli rakursdan diqqəti cəlb edən davranışlarının şahidi oluruq. Bu ölkə və onun rəhbərləri bir qayda olaraq işğalçı dövlətin və separatçı rejimin havadarları rolunda çıxış edirlər. Qısa şəkildə deyə bilərik ki, ATƏT-in Minsk Qrupunda təmsil olunan Fransanın mövqeyi onun həmsədr statusuna qətiyyən uyğun gəlmir. Fransanın qərəzli və qeyri-obyektiv tərəf olduğunu nəzərə alaraq, Fransa Minsk Qrupunun həmsədrliyindən çıxarılmalıdır. Xatırlatmaq yerinə düşər ki, ATƏT-in Minsk Qrupunun həmsədrlik institutu yaradılan zaman Azərbaycan qəti şəkildə Fransanın həmsədr olmasına etiraz edirdi. O zaman Fransa qərəzsiz və tarazlı siyasət yürüdəcəyinə öhdəlik götürmüşdü. Belə görünür ki, Fransa bəyan etdiyi dəyərlərə sayğısız yanaşır və üzərinə götürdüyü öhdəliklərə əməl etmir.

**Mübariz ABDULLAYEV**

YENİ AZƏRBAYCAN
http://www.yeniazerbaycan.com
Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir

**Məqalə KİVDF-nin maliyyə dəstəyi ilə “Regionların sosial-iqtisadi inkişafının təşviq edilməsi” istiqaməti üzrə həyata keçirilən layihə çərçivəsində hazırlanmışdır**

KİVDF
www.kivdf.gov.az

# Azərbaycanın bölgələrində yaşayış məntəqələrinin qazlaşdırılması ilə bağlı tədbirlər davam etdirilir

*Bu il “Azəriqaz” İstehsalat Birliyi tərəfindən 99 yaşayış məntəqəsinə təbii qaz verilib*



Öz inkişafına görə regionun lider dövləti olan Azərbaycanda həyata keçirilən siyasət bütün sahələrin tərəqqisinə səbəb olub. Heç şübhəsiz bu baxımdan regionların sosial-iqtisadi inkişafına dair Dövlət proqramları çərçivəsində görülən işlər xüsusi önəm kəsb edir. Məhz bu proqramlar çərçivəsində ötən 15 il ərzində regionlarda geniş-miqyaslı abadlıq-quruculuq işləri görülüb, həmçinin, bölgələrdə istər qazlaşdırma, istər elektrik enerjisi ilə təminat, istərsə də digər kommunikasiya və xidmət sahələrinin yüksək səviyyəyə çatması istiqamətində mühüm addımlar atılıb.

Beləliklə, son illərdə Azərbaycanın güclü infrastruktur təminatına malik ölkəyə çevrilməsi istiqamətində görülən işlər qazlaşdırma sahəsində də mühüm uğurların əldə edilməsinə səbəb olub. 2004-cü ildən ötən dövr ərzində Azərbaycanda qazlaşdırma, demək olar ki, iki dəfəyə yaxın artıb. Artıq proses indiyədək qazlaşdırılmayan və yaxud müəyyən səbəblərdən qaz təminatı dayandırılan kəndləri və kiçik yaşayış məntəqələrini də əhatə edir. Cari ildə regionlarda yaşayış məntəqələrinin qazlaşdırılması ilə bağlı qarşıya qoyulan hədəflər isə yüksək səviyyədə icra edilir. Məlum olduğu kimi, Prezident İlham Əliyev 5 mart 2018-ci il tarixində “Yaşayış məntəqələrinin qazlaşdırılması ilə bağlı tədbirlər haqqında” müvafiq Sərəncam imzalayıb. Sərəncamda vurğulanır ki, son illər əhalinin təbii qaza tələbatının təmin edilməsi istiqamətində bir sıra vacib tədbirlər həyata keçirilmiş, qaz təchizatı infrastrukturu yenidən qurulmuş, təbii qazla təchiz olunmayan yaşayış məntəqələrinə qaz kəmərləri çəkilmiş, əhaliyə verilən təbii qazın dəyərinin tam həcmdə ödənilməsini təşkil etmək məqsədilə sayğaclaşma işləri aparılmışdır. Görülən işlərin davamı kimi 2018-ci ilin sonunadək ölkədə qazlaşdırmanın səviyyəsini 95 faizə çatdırmaq nəzərdə tutulur.

Bu məqamda vurğulamaq yerinə düşər ki, bu il “Azəriqaz” İstehsalat Birliyi (İB) tərəfindən 99 yaşayış məntəqəsinə təbii qaz verilib. Bu ilin yanvar-oktyabr ayları ərzində 2848 kilometr yeni qaz kəməri quraşdırılıb, qaz kəmərləri şəbəkəsinin təhlükəsiz və normal rejimdə istismarının təmin olunması üçün isə 208,8 kilometr qaz kəməri əsaslı təmir olunub. Bu il ərzində aparılan tikinti-quraşdırma işləri nəticəsində Ağstafa, Ağcabədi, Ağsu, İsmayıllı, Bərdə, Tərtər, Zərdab, Kürdəmir, Qax, Quba, Şabran, Siyəzən, Şəmkir, Şamaxı, Şəki, Göyçay, Göygöl, Ucar, Xaçmaz, Beyləqan, Yevlax, Lerik, Lənkəran, Sabirabad, Saatlı, Salyan, Neftçala, Cəlilabad və Masallı rayonları üzrə 99 yaşayış məntəqəsi təbii qazla təmin edilib.

Onu da qeyd edək ki, “Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı”nın icrası istiqamətində “Azəriqaz” İB tərəfindən respublika ərazisində qaz təchizatı sisteminin yenidən qurulması, kənd və qəsəbələrin qazlaşdırılması, həmçinin uzun müddət təbii qaz almayan yaşayış məntəqələrinin yenidən “mavi yanacaq”la təmin edilməsi istiqamətində görülən məqsədyönlü tədbirlər nəticəsində respublikanın qaz təchizatı şəbəkəsi genişləndirilir və müasirləşdirilir. Bu məqsədlə, noyabrın 8-də Ucar rayonunun Bərgüşad kəndinə təbii qazın verilməsi kənd sakinlərinin böyük sevincinə səbəb olub. Ümumilikdə 1247 fərdi evdən ibarət olan kəndin qazlaşdırılması üçün birpilləli sistem əsasında ümumi uzunluğu 126 min 506 metr olan müxtəlif diametrli polad və polietilen borularla daşıyıcı, paylayıcı, həmçinin məhəllədaxili qaz xətləri çəkilib, hər bir mənzilə sayğac və fərdi tənzimləyici quraşdırılıb. Yeni qazlaşdırılan yaşayış sahələrində qaz şəbəkəsinin qurulmasında “birpilləli” tənzimləmə sistemi tətbiq edilib ki, bu da hər bir abonentin fərdi qaztənzimləyicidən istifadə etməsinə və istehlakçılara ötürülən qazın sabit rejimdə saxlanılmasına zəmin yaradır. Hazırda rayonun Əlikənd və Ramal kəndlərində tikinti, quraşdırma işləri yekunlaşdırılaraq istismara qəbul mərhələsindədir. Tezliklə həmin kəndlərə təbii qazın verilişi təmin ediləcək.

SOCAR-ın “Azəriqaz” İstehsalat Birliyi tərəfindən Qusar rayonunun Piral və Cibir kəndlərinin “mavi yanacaq”la təmin olunması işləri isə yekunlaşmaq üzrədir. Tikinti işləri yekunlaşdıqdan sonra yaşayış məntəqələrində 1020 abonent ilk dəfə “mavi yanacaq”la təmin ediləcək. Artıq işlərin 95 faizi görülüb. Hazırda hər iki kənddə abonentlər üçün sayğac və fərdi tənzimləyicilər quraşdırılır. Qeyd edək ki, Piral kəndində qazlaşdırma işlərinə aprel ayından start verilib. Kəndin qazla təmin olunması üçün 38 min metrə yaxın müxtəlif diametrli polad və polietilen borulardan istifadə edilib. Yeni qazlaşdırılan yaşayış sahələrində qaz şəbəkəsinin qurulmasında birpilləli tənzimləmə sistemi tətbiq olunub. Bu da hər bir abonentin fərdi qaztənzimləyicidən istifadə etməsinə və istehlakçılara ötürülən qazın sabit rejimdə saxlanılmasına zəmin yaradır. Kəndlərin qazlaşdırılması Azərbaycan Prezidentinin “Yaşayış məntəqələrinin qazlaşdırılması ilə bağlı tədbirlər haqqında” 2018-ci il 5 mart tarixli Sərəncamına əsasən icra olunur.

Eləcə də regionların sosial-iqtisadi inkişafına dair Dövlət Proqramında müəyyən edilən tədbirlərə müvafiq olaraq Salyanın Peyk kəndinə ilk dəfə təbii qaz verilib. Məlumat üçün bildirək ki, hazırda rayonun 51 yaşayış məntəqəsindən 45-də təbii yanacaqdan istifadə olunur. Peyk kəndi rayonun “mavi yanacaq”la təmin olunan 46-cı kəndidir. 232 fərdi yaşayış evindən ibarət olan və 2500 nəfər əhalinin yaşadığı kəndin qazlaşdırılması üçün birpilləli sistem əsasında 31013 metr metal və polietilen borularla daşıyıcı və paylayıcı qaz xətləri çəkilib, mənzillərə sayğac və fərdi tənzimləyici quraşdırılıb. Qeyd edək ki, gələn il daha 5 kəndə təbii qazın verilməsi nəzərdə tutulub.

Şəkinin Baş Küngüt kəndinə də təbii qaz verilib. Ümumilikdə 351 fərdi evdən ibarət olan kəndin qazlaşdırılması üçün birpilləli sistem əsasında ümumi uzunluğu 34 min 700 metr olan müxtəlif diametrli metal və polietilen borularla daşıyıcı, həmçinin məhəllədaxili qaz xətləri çəkilib, hər bir mənzilə sayğac və fərdi tənzimləyici quraşdırılıb. Yeni qazlaşdırılan yaşayış sahələrində qaz şəbəkəsinin qurulmasında “birpilləli” tənzimləmə sistemi tətbiq edilib ki, bu da hər bir abonentin fərdi qaztənzimləyicidən istifadə etməsinə və istehlakçılara ötürülən qazın sabit rejimdə saxlanılmasına zəmin yaradır. Hazırda rayonun Çayqaraqoyunlu kəndində tikinti, quraşdırma işləri davam etdirilir. Tezliklə tikinti işləri başa çatdırılaraq təbii qazın verilişi təmin ediləcək.

Respublikamızın hər yerində olduğu kimi, Kürdəmir rayonunda da yaşayış məntəqələrinin qazlaşdırılması istiqamətində tədbirlər davam etdirilir. Rayonun daha iki kəndinə - 3227 nəfər əhalisi olan Mollakənd və 3104 nəfər sakinin yaşadığı Muradxan yaşayış məntəqələrinə təbii qaz verilib. 576 abonenti olan Mollakənd və 521 abonenti olan Muradxan kəndlərinin qazlaşdırılması üçün birpilləli sistem əsasında 13615 metr daşıyıcı, 90257 metr yerüstü məhəllədaxili paylayıcı qaz xətləri çəkilib, mənzillərə 1097 tənzimləyici və qaz sayğacı quraşdırılıb. Hər bir mənzilin mətbəxinə SOCAR-ın “Azəriqaz” İstehsalat Birliyinin hesabına daxili qaz xətti çəkilib.

Vurğulayaq ki, hazırda Kürdəmir şəhəri də daxil olmaqla, rayonun 62 yaşayış məntəqəsinin 58-nə təbii qaz verilib. 19893 abonent “mavi yanacaq”dan istifadə edir ki, bu da rayon əhalisinin 95 faizini təşkil edir. Hazırda rayonun Qarasu kəndində qazlaşdırma işləri aparılır. Qalan üç yaşayış məntəqəsində - Qarabucaq qəsəbə, Qarabucaq kənd və Qurdbayram kəndlərində layihə-smeta işləri görülür.

Ağcabədi rayonunda isə məcburi köçkünlərin məskunlaşdığı Qayğı qəsəbəsinə təbii qaz verilib. 54 fərdi evdən ibarət olan qəsəbənin qazlaşdırılması üçün birpilləli sistem əsasında ümumi uzunluğu 2 min 746 metr müxtəlif diametrli metal borularla daşıyıcı və paylayıcı qaz xətləri çəkilib, hər bir mənzilə sayğac və fərdi tənzimləyici quraşdırılıb.

Regionların 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramının icrası çərçivəsində SOCAR-ın ‘’Azəriqaz’’ İstehsalat Birliyi tərəfindən Sabirabadın Yastıqobu kəndinə də ilk dəfə təbii qaz verilib. İndiyədək rayonun 74 yaşayış məntəqəsindən 62-si qazlaşdırılıb. Onların sırasına 62 fərdi evi olan Yastıqobu kəndi də əlavə olunub. Kəndin qazlaşdırılması üçün birpilləli sistem əsasında 8 min 620 metr müxtəlif diametrli polietilen borularla daşıyıcı və məhəllədaxili qaz xətləri çəkilib, mənzillərə sayğac və fərdi tənzimləyici qoyulub. Vurğulandığı kimi, Sabirabad şəhəri də daxil olmaqla, rayonun 62 kənd və 2 məcburi köçkün qəsəbəsi təbii qazla təmin olunub. Qalan 12 yaşayış məntəqəsinin də qazlaşdırılması nəzərdə tutulur. Hazırda rayonun Rüstəmli kəndi ərazisində Zəngilandan olan məcburi köçkünlərin məskunlaşdığı qəsəbədə tikinti-quraşdırma işləri başa çatıb. Tezliklə qəsəbə sakinləri təbii qazdan istifadə edə biləcəklər.

Tərtər rayonuna gəlincə, verilən məlumata görə rayonun təbii qazla təmin edilən yaşayış məntəqələrinin sırasına Hacallı, Soyulan, Alışarlı və Aşağı Qapanlı, Rəcəbli, Kövdadıq, Bildirçinli və Umudlu kəndləri də əlavə olunub. Ümumilikdə, 428 fərdi evdən ibarət olan kəndlərin qazlaşdırılması üçün birpilləli sistem əsasında 29 min 578 metr müxtəlif diametrli metal borularla daşıyıcı və paylayıcı qaz xətləri çəkilib, mənzillərə sayğac və fərdi tənzimləyici quraşdırılıb. Yeni qazlaşdırılan yaşayış sahələrində qaz şəbəkəsinin qurulmasında “birpilləli” tənzimləmə sistemi tətbiq edilib ki, bu da hər bir abonentin fərdi qaztənzimləyicidən istifadə etməsinə və istehlakçılara ötürülən qazın sabit rejimdə saxlanılmasına zəmin yaradır.

**Pərviz SADAYOĞLU**

# Kreyq Ridi: WADA-nın Bakıda keçirilən iclaslarında mühüm qərarlar qəbul olunub




Ümumdünya Antidopinq Agentliyinin (WADA) Təsisçilər Şurasının və İcraiyyə Komitəsinin iclaslarına yüksək səviyyədə ev sahibliyi etdiyinə görə Azərbaycan hökumətinə minnətdarlığımı bildirirəm. Bu iclaslar çox məhsuldar keçdi və mühüm qərarlar qəbul olundu.

AZƏRTAC xəbər verir ki, bunu WADA-nın prezidenti Kreyq Ridi qurumun Təsisçilər Şurasının və İcraiyyə Komitəsinin Bakıda keçirilən iclasları ilə əlaqədar təşkil olunan mətbuat konfransında deyib.

K.Ridi bildirib ki, Bakıda keçirilən toplantıda xeyli sayda ölkədən və qurumdan nümayəndələr iştirak ediblər. Onlar idmanda yalana və dopinqlərə qarşı ciddi mübarizə aparılması yollarını müzakirə ediblər. Bundan əlavə, İcraiyyə Komitəsində idmançıların da təmsil olunması ilə bağlı qərar qəbul edilib. Noyabrın 28-də WADA-nın nümayəndə heyəti Moskva Laboratoriyasında görülən işlərlə tanış olacaqlar. Bu, Rusiya Antidopinq Agentliyi (RUSADA) ilə WADA arasındakı sıx əməkdaşlıqdan irəli gəlir.

**“Azərbaycanda xüsusi diqqətdə saxladığımız hansısa idman növləri yoxdur. Rəhbərlik etdiyim qurum mütəmadi olaraq milli təşkilatlarda auditlər aparır. Biz hər il qadağan olunmuş maddələrin siyahısını yeniləyirik. Çünki antidopinq dünyası sürətlə dəyişir. İstəyimiz odur ki, yerli təşkilatlar məcəlləyə uyğun fəaliyyət göstərsinlər. Azərbaycan Milli Antidopinq Agentliyinin fəaliyyətindən razıyıq. Bu qurum Polşadakı təşkilatla sıx əməkdaşlıq sayəsində çox iş görüb”,** - deyə K.Ridi əlavə edib.

Qeyd edək ki, Bakıda Ümumdünya Antidopinq Agentliyinin (WADA) Təsisçilər Şurasının və İcraiyyə Komitəsinin iclaslarında ötənilki fəaliyyətin yekunlarına dair hesabat məruzəsi dinlənilib, 2019-cu ilin noyabrında Polşada keçiriləcək İdmanda Dopinq Konfransının prezidenti və vitse-prezidenti vəzifələrinə seçkilərin qaydaları müzakirə olunub.

Mərasimdə WADA-nın müstəqil normalara riayət edilməsi komitəsinin rəhbərlərinin çıxışları dinlənilib və bu istiqamətdə qəbul edilmiş qərarlar haqqında yeni məlumatlar verilib.

Bununla yanaşı, iclasda qurumun daimi komitəsinin sədrləri tərəfindən maliyyə, tibb, təhsil və digər sahələrdə görülən işlər də müzakirə edilib.

# “Brain Ring” izlə, “Nar”dan hədiyyə qazan!




“Nar”ın dəstək olduğu “Brain Ring” intellektual bilik yarışlarının 12-ci mövsümü davam edir. Hər il olduğu kimi, bu mövsüm də televiziya tamaşaçıları üçün xüsusi bir müsabiqə keçirilir. Belə ki, yarışın yayımı zamanı “Nar”ın “Twitter” hesabında qoyulan suala ən tez cavab verən izləyicilər xüsusi hədiyyələr qazanırlar. “Brain Ring” həvəskarları bu intellektual yarışı izləmək fürsəti ilə yanaşı, həm də “Nar”dan hədiyyə qazanmaq şansı əldə edirlər.

Oktyabr ayının qalibləri olan “Twitter” istifadəçilərinin adları artıq məlumdur: Fərhad Məmmədli (https://twitter.com/BadFarhad), Rəfi Əsgərli(https://twitter.com/refiesgerli), Elvin Abbasov (https://twitter.com/abbasovbm), A.Abbasovadır (https://twitter.com/a_ayaone).

Qeyd edək ki, “Brain Ring” intellektual yarışlarında respublikanın müxtəlif bölgə və ali məktəblərini təmsil edən komandalar bilik mübarizəsi aparırlar. Dekabr ayının sonunadək davam edəcək yarışlar hər həftənin bazar günü saat 22:00-da İctimai TV vasitəsilə yayımlanır.

Ətraflı məlumatı https://twitter.com/salam_nar hesabından əldə etmək mümkündür.

“Azerfon” şirkəti (“Nar” ticarət nişanı) 21 mart 2007-ci ildə fəaliyyətə başlayaraq qısa bir müddətdə Azərbaycanda telekommunikasiya və mobil rabitə sahəsinin aparıcı şirkətlərindən birinə çevrilib. “Nar” ölkədə ilk dəfə olaraq 3G texnologiyasını təqdim edib və geniş 4G şəbəkəsini abunəçilərinin istifadəsinə verib. “Nar” şəbəkəsi hazırda ölkə ərazisinin 93 faizini əhatə edir və 7000-dən artıq baza stansiyası ilə 2,1 milyondan çox abunəçiyə yüksəkkeyfiyyətli xidmət göstərir.

# 100-dən çox idmançı Oyunlarda mübarizəyə qatılıb

*“Azercell”in dəstəyi ilə IV Uşaq Paralimpiya Oyunları keçirilib*







Sağlamlıq imkanları məhdud uşaqların cəmiyyətə inteqrasiya olunmasına dəstək vermək və onların idmana həvəsini artırmaq məqsədilə “Azercell Telekom” MMC-nin dəstəyi ilə fəaliyyət göstərən Uşaq Paralimpiya Komitəsi tərəfindən ölkəmizdə növbəti dəfə Uşaq Paralimpiya Oyunları təşkil edilib.

Milli Paralimpiya Komitəsinin təşkilatçılığı, “Azercell Telekom” MMC-nin və UNİCEF-in dəstəyi ilə IV dəfə keçirilən Uşaq Paralimpiya Oyunları 13-14 noyabrda Sumqayıt şəhərində yerləşən Respublika Paralimpiya İdman Kompleksində 100-dən çox paralimpiyaçı uşağı bir araya gətirib. Bakıdan, eləcə də bölgələrdən Oyunlara qatılan idmançılarımız idmanın 8 növü üzrə öz güclərini sınayıblar. Yerli paralimpiyaçılarımızdan əlavə, IV Uşaq Paralimpiya Oyunlarında Gürcüstandan sağlamlıq imkanları məhdud 9 idmançı da 3 idman növündə mübarizə aparıb.

Oyunların rəsmi açılış mərasimi 14 noyabr 2018-ci il tarixində Sumqayıt şəhərində yerləşən Respublika Paralimpiya İdman Kompleksində keçirilib. Açılış zamanı çıxış edən “Azercell Telekom”un prezidenti Vahid Mürsəliyev mütəmadi keçirilən bu turnirlərin köməyilə sağlamlıq imkanları məhdud olan uşaqların idmanla məşğul olmaq, müxtəlif beynəlxalq yarışlarda Azərbaycanı təmsil etmək şansını qazandığını sevindirici hal kimi qiymətləndirib. Bunun uşaqlara həm dünya idmanına interqrasiya etməyə, həm də gələcəkdə uğurlu idmançı karyerasını qurmağa kömək edə biləcəyini qeyd edib. Bu turnirin təşkilində əməyi olmuş bütün təşkilat və komitə üzvlərinə minnətdarlığını bildirərək, iştirakçılara final oyunda uğurlu və qızğın mübarizə arzulayıb. Açılış mərasimində Beynəlxalq Paralimpiya Komitəsinin Prezidenti Endryu Parsons da iştirak edib.

## Allah rəhmət eləsin!

26 nömrəli “Yol İstismarı” MMC-nin kollektivi Cəmiyyətin direktoru Araz Əsgərova atası

**Şəmistan Əsgərovun**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Yeni Azərbaycan Partiyası Yevlax rayon təşkilatının sədri İlham Məmmədov və aparat rəhbəri Əli Quliyev YAP Mərkəzi Aparatının məsul işçisi Rəfael Gülməmmədova atası

**Şirməmməd müəllimin**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Təsisçi:
**Yeni Azərbaycan Partiyası**
Baş redaktor:
Hikmət BABAOĞLU

www.yeniazerbaycan.com
mail@yeniazerbaycan.com
Ünvan: Bakı - AZ-1000, Üzeyir Hacıbəyov - 66
Telefonlar:
598-37-76, 498-82-21
498-81-24, 498-19-84

İndeks: 67100
Lisenziya: N-B-317
Tiraj: 6074
“Kapital Bank”ın Nərimanov rayon filialı
h/h - 33080019443900419109
kod - 200093
VÖEN - 1500486601

İnformasiya mənbələrimiz:
“AZƏRTAC”,
“Azadinform”, “SİA”
Qəzet “Yeni Azərbaycan”ın bilgisayar mərkəzində yığılıb, səhifələnib və “Azərbaycan” nəşriyyatında ofset üsulu ilə çap edilib.

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur.

**Buraxılışa məsul**:
Zahid İLHAMOĞLU